# QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 108 (6308) 22 iyun 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycanı tam dəstəkləməsi qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir"

*Prezident İlham Əliyev Pakistanın Quru Qoşunlarının komandanını qəbul edib*



Bax 2

## YAP Nəsimi rayon təşkilatının hesabat konfransı keçirilib




Bax 3

İyunun 21-də Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının hesabat konfranslarına start verilib. İlk olaraq, YAP Nəsimi rayon təşkilatının videoformatda...

## MEDİA beynəlxalq əlaqələrini genişləndirir

Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda səfərdə olan Aljazeera Media İnstitutunun nümayəndə heyəti ilə...



Bax 4

## Ukrayna kanalında işğaldan azad olunmuş ərazilərimizdə aparılan yenidənqurma işləri ilə bağlı reportaj yayımlanıb



Bax 4

Ukraynanın nüfuzlu "İnter" kanalında Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan yenidənqurma işləri ilə bağlı xüsusi reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, kanalın xəbərlər...

## Ermənilər niyə Paşinyanı seçdi



Bax 14

## Fiziki şəxslərin əmanətləri: Manat 6 ildən sonra üstünlüyü ələ alsa da...



Azərbaycanda fiziki şəxslərin əmanətlərinin strukturunda manatla depozitlər 2015-ci ilin fevralından bəri ilk dəfə üstün paya sahib olub. Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatında...

Bax 11

## SOS: Müasir uşaqları gözləyən təhlükə



Körpə olanda anamızın böyük həvəslə bizə verdiyi südün xeyrini bütün ömrümüz boyu görmüşük. Ana südü bizi təhlükəli xəstəliklərdən qoruyub...

Bax 15

## DSX-dən uğurlu əməliyyat: dəstə iş başında zərərsizləşdirildi



## Səhiyyə Nazirliyi yeni qapanmanın siqnalını verdi - təhlükə nədir?

(SƏS TV - CANLI)




## Asratyan: "Erməni xalqı yenə məğlub oldu, amma bu dəfə özü-özünə uduzdu"



Bax 13

## Dünyanın tolerantlıq mərkəzi olan Azərbaycan




Bax 10

## Hakan Çalhanoğlu "İnter"ə keçir?



Bax 16

## Rəsmi xronika

Prezident İlham Əliyev "Xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı uyğunlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 25 may tarixli 326-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# "İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycanı tam dəstəkləməsi qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir"

*Prezident İlham Əliyev Pakistanın Quru Qoşunlarının komandanını qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, ordu generalı Qamar Caved Bacvanı salamlayan Prezident İlham Əliyev qeyd edib ki, Pakistan bizim torpaqlarımızın işğalı səbəbindən Ermənistanı tanımayan və Ermənistanla diplomatik əlaqələr qurmayan az sayda ölkələrdən biridir:

- Sizi görməyə çox şadam. Xoş gəlmisiniz. Ümidvaram ki, ölkəmizə səfəriniz çox səmərəli olacaq və bu, bizim sıx tərəfdaşlıq münasibətlərimizi daha da gücləndirəcək. Biz çox şadıq ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir. Pakistan və Azərbaycan iki qardaş ölkə olaraq ikitərəfli əlaqələrini gücləndirir. Biz xüsusilə İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycana göstərdiyi çox fəal dəstək mövqeyinə görə minnətdarıq. Müharibənin ilk günlərindən ölkənizin ali rəhbərliyi - Prezident və Baş nazir ərazi bütövlüyümüzün bərpasında Azərbaycana tam dəstəklərini ifadə etdilər. Bu, bizim əməkdaşlığımızın çox mühüm elementi və qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir. Pakistanın digər yüksək rütbəli rəsmiləri, parlament üzvləri və ictimai xadimlər Ermənistan ordusunun tam məğlubiyyəti və Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük müharibə ərzində bizi dəstəklədilər. Dağlıq Qarabağ münaqişəsi Azərbaycan tərəfindən güc və siyasi yolla həll olundu.

Mən, həmçinin qeyd etmək istərdim ki, Pakistan bizim torpaqlarımızın işğalı səbəbindən Ermənistanı tanımayan və Ermənistanla diplomatik əlaqələr qurmayan az sayda ölkələrdən biridir. Bu, ölkələrimiz arasında qardaşlıq əlaqələrimizin daha bir nümayişidir. Azərbaycan xalqı bunu bilir. Biz hər zaman Azərbaycanı kimin dəstəklədiyi və müharibə zamanı bizi kimin dəstəklədiyi barədə mesaj veririk. Ona görə də bütün şəhər və ölkə boyu Pakistan bayraqlarının olması təəccüblü deyil, bunun nəticəsində ölkələrimiz və xalqlarımız arasındakı qardaşlıq güclənəcək. Bildiyiniz kimi, Azərbaycan Kəşmir məsələsində hər zaman Pakistanı dəstəkləyir. Bizim açıq mövqeyimiz dəfələrlə nümayiş etdirilib. Bu mövqe ədalət, beynəlxalq hüquq və qardaşlıq əlaqələrimizə əsaslanır. Biz bütün məsələlərdə qardaşlarımızı dəstəkləməliyik.

Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq hüquq və ədaləti fəal şəkildə müdafiə edir. Mən Bakıda keçirilən sammitdə şəxsən iştirak etdiyinə və Qoşulmama Hərəkatı çərçivəsində bizim təşəbbüsləri dəstəklədiyinə görə Pakistanın Prezidentinə çox minnətdaram. Əməkdaşlığımız uğurla inkişaf edir. Biz müdafiə və müdafiə sənayesi sahələrində çox yüksək səviyyəli tərəfdaşlıq nümayiş etdiririk. Sizin bizim ölkəmizə səfəriniz bunun daha bir göstəricisidir. Biz Pakistanın müdafiə sənayesi məhsullarına çıxışımız olduğuna görə məmnunuq. Bildiyiniz kimi, biz bu məhsulları alırıq, bu da bizim hərbi potensialımızı gücləndirir. Düşünürəm ki, qarşıdakı illərdə biz hərbi əməkdaşlığımızı genişləndirməli və tərəfdaşlığımızı gücləndirmək üçün birgə hərbi təlim və başqa təşəbbüslər planlaşdırmalıyıq. Əminəm ki, bu və bir çox başqa məsələlər həmkarlarınızla müzakirə mövzuları kimi sizin gündəliyinizdə olacaq. Sizə yaxşı vaxt keçirməyi arzulayıram. Bir daha xoş gəlmisiniz.

X X X

Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacva Pakistanın Baş naziri İmran Xanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Pakistanın Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İmran Xana çatdırmağı xahiş etdi.

X X X

Ordu generalı Qamar Caved Bacva:

- Cənab Prezident. İlk növbədə, Sizinlə görüşmək mənim üçün böyük şərəfdir. Birincisi, Ermənistanı məğlub edərək və ərazilərinizi geri qaytararaq qazandığınız tarixi Qələbə münasibətilə səmimi qəlbdən təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Düşünürəm ki, bu, hər bir müsəlman, hər bir pakistanlı üçün möhtəşəm hadisədir. Ölkənizə qarşı qərəzliliyə baxmayaraq, Siz ərazi bütövlüyünüzü bərpa etdiniz. Sizi səmimi qəlbdən təbrik edirəm. İkincisi, mən qeyd etmək istərdim ki, 1993-cü ildə dostlarımdan biri Azərbaycana gəlmişdi və o zaman çox məyus olmuşdu. O, ötən il buraya səfər etdi və heyran oldu, dedi ki, görkəmli şəxsiyyət olan atanızın və Sizin rəhbərliyinizlə Azərbaycan son 30 ildə inkişaf edib. O qeyd etdi ki, bunu yüksək qiymətləndirir.

Zati-aliləri, Azərbaycan ilə bizim ortaq tərəfdaşlarımızdan biri də Türkiyədir. Sizin "bir millət, iki dövlət" dediyiniz kimi, Türkiyə bizim də qəlbimizə çox yaxındır. Dünyada ən yaxın əlaqələrimiz Türkiyə ilədir. Hər üç ölkə arasında sıx əlaqələrin olması əməkdaşlığımız üçün həddsiz imkanlar açır. Bizim Azərbaycanda nəzərdən keçirəcəyimiz bir çox imkanlar var, iş adamlarımız buraya səfər edə bilərlər.

X X X

Görüşdə nəqliyyat, logistika, energetika, ticarət dövriyyəsi sahələrində əməkdaşlıq məsələləri də müzakirə olundu.

# Azərbaycan və Qazaxıstanı tarixi dostluq əlaqələri birləşdirir

*Prezident İlham Əliyev Qazaxıstanın Baş nazirinin müavinini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdini qəbul edib. AZƏRTAC xəbər verir ki, Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdi Qazaxıstan dövlətinin başçısı Kasım-Jomart Tokayev və Qazaxıstanın birinci Prezidenti - Elbası Nursultan Nazarbayevin salamlarını dövlətimizin başçısına çatdırdı.**

Prezident İlham Əliyev Qazaxıstan dövlətinin başçısının və Qazaxıstanın birinci Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kasım-Jomart Tokayevə və Nursultan Nazarbayevə çatdırmağı xahiş etdi. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin əsasının ulu öndər Heydər Əliyev və Qazaxıstanın birinci Prezidenti - Elbası Nursultan Nazarbayev tərəfindən qoyulduğu qeyd olunaraq, hazırda bu siyasətin Azərbaycanın və Qazaxıstanın dövlət başçıları tərəfindən uğurla davam etdirildiyi bildirildi, Prezidentlər arasında daimi təmasların əməkdaşlığımızın inkişafı üçün yaxşı əsas yaratdığı vurğulandı.



Söhbət zamanı iqtisadi əlaqələrə toxunularaq, investisiya layihələrinin və nəqliyyat dəhlizlərinin inkişafının önəmi qeyd olundu. Qarşıdakı illərdə yükdaşımanın həcminin artırılmasının və tariflərin unifikasiyası üçün daha əlverişli şəraitin yaradılmasının vacibliyi bildirildi.

Eyni zamanda, ticarət dövriyyəsinin artırılmasının da gündəlikdə duran mühüm məsələlərdən biri olduğu qeyd edildi və pandemiya bitdikdən sonra ticarət dövriyyəsinin bərpa olunacağına və artırılacağına ümidvarlıq ifadə olundu. Bu baxımdan ticari-iqtisadi əməkdaşlığın şaxələndirilməsinin və qarşılıqlı ixracın genişləndirilməsinin vacibliyi vurğulandı. Görüşdə ölkələrimiz arasında beynəlxalq əməkdaşlıq sahəsində də sıx əlaqələrin mövcud olduğu məmnunluqla qeyd edildi. Muxtar Tleuberdi Azərbaycanın ərazi bütövlüyünün bərpası, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsi və Qələbə münasibətilə Azərbaycan Respublikasının Prezidentini və Azərbaycan xalqını səmimiyyətlə təbrik etdi. O, bu Qələbənin regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət etdiyini bildirdi.

# YAP Nəsimi rayon təşkilatının hesabat konfransı keçirilib

**İyunun 21-də Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının hesabat konfranslarına start verilib. İlk olaraq, YAP Nəsimi rayon təşkilatının videoformatda hesabat konfransı keçirilib. Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun iştirak etdiyi tədbirdə əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**





Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı hesabat məruzəsi ilə çıxış edib. Bildirilib ki, hesabat dövrü ölkəmizin həyatında əzəmətli nailiyyətlər və əlamətdar tarixi hadisələrlə zəngin olub. Uğurla keçirilmiş 2018-ci ilin prezident, 2019-cu ilin bələdiyyə, 2020-ci ilin parlament seçkiləri ölkəmizin ictimai-siyasi həyatında olduqca önəmli yer tutub. Zəfərlə nəticələnmiş Vətən müharibəsi isə yaddaşlarımıza və tariximizə əbədi yazılacaq.





M.İbrahimqızı qeyd edib ki, YAP Nəsimi rayon təşkilatı və onun hər bir üzvü hər zaman dövlətimizin başçısı İlham Əliyevin uğurlu siyasətinin nəticələrinin rayon əhalisi arasında fəal şəkildə təbliğini, partiyamızın həyata keçirdiyi layihələrdə üzərinə düşən vəzifə və öhdəlikləri yerinə yetirməyə çalışıb. Rayon təşkilatının hesabat dövrü ərzində gördüyü işlər slaydlarla təqdim olunub.

Sonra YAP Nəsimi rayon təşkilatının hesabat dövründəki fəaliyyətinə həsr olunmuş video-çarx nümayiş etdirilib.

Daha sonra YAP Nəsimi rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Azər Maqsudovun hesabat məruzəsi təqdim olunub.

Məruzələr dinlənildikdən sonra Nəsimi rayon İcra Hakimiyyətinin başçısı, YAP Nəsimi rayon təşkilatının sədr müavini Asif Əsgərov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, YAP Nəsimi rayon təşkilatının İdarə Heyətinin üzvü Mustafa Babanlı, Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini, YAP Nəsimi rayon təşkilatının sədr müavini Elsevər Ağayev, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin şöbə müdiri, komitə üzrə ərazi ilk partiya təşkilatının sədr müavini Gülbəniz Əliyeva və Mənzil İnşaatı Dövlət Agentliyinin aparat rəhbəri, agentlik üzrə ərazi ilk partiya təşkilatının sədri Fərman Qurbanlı çıxış edərək YAP Nəsimi rayon təşkilatının hesabat dövrü ərzində fəaliyyətinə dair fikirlərini bildiriblər.





Konfransda çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov hazırda ölkəmizin inkişafının yeni mərhələsinin başlandığını bildirib. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımız azad edilib, Azərbaycanın ərazi bütövlüyü bərpa olunub. Bu Zəfər Azərbaycanın gücünü və qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Yeni Azərbaycan Partiyasının ölkəmizin həyatındakı mühüm rolundan bəhs edən Tahir Budaqov qeyd edib ki, partiyamız məhz 1990-cı illərin əvvəllərində Azərbaycanın çətin sınaq qarşısında qaldığı bir zamanda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılıb. YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etsə də, onu itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə xalqımız, o cümlədən dəyərli ziyalılarımız bu ağır durumdan çıxış yolunu yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Xalqın gələcəyini düşünən bir qrup ziyalı Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı ulu öndər Heydər Əliyevə müraciət etdi və Ulu Öndərimiz bu partiyanın yaradılmasına və ona rəhbərlik etməsinə razılıq verdi. Beləliklə, 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyası təsis edildi. Yarandıqdan qısa müddət sonra isə YAP hakimiyyətə gəldi. Partiyamızın qurucusu, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmiz bütün çətinliklərdən xilas oldu. Bütün xalqımız ulu öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək respublikamızın inkişaf və tərəqqisinə nail oldu. Həmin dövrdə Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasının təntənəsi bu gün də müstəqil respublikamızın davamlı inkişafında özünü ifadə edir.

Tahir Budaqov həmçinin, Yeni Azərbaycan Partiyasının VII Qurultayının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu bildirib və qeyd edib ki, qurultayda partiyamızın Sədri, Prezident İlham Əliyevin proqram xarakterli nitqi, möhtəşəm Zəfərdən sonra yaranmış reallıqlar YAP üzvləri qarşısında yeni vəzifələr müəyyələşdirir. Ona görə də, Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətində bu vəzifələrin yerinə yetirilməsi xüsusi diqqət mərkəzində olacaq. Bu baxımdan, YAP qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirməlidir. Bu prosesdə partiyamızın yerli təşkilatları da fəal iştirak etməlidir. YAP Nəsimi rayon təşkilatının partiyamızın mütəşəkkil, aktiv yerli sturkurlarından biri olduğunu deyən Tahir Budaqov təşkilatın hesabat dövrü ərzindəki fəaliyyətini müsbət qiymətləndirib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev çıxış edərək bildirib ki, hər bir siyasi təşkilat mütəmadi olaraq yenilənməli, ideoloji prinsiplərini yeni dövrün tələblərinə uyğunlaşdırmalı, funksional və struktur islahatları baxımından dövrün çağırışlarına cavab verməlidir. Bu baxımdan, VII Qurultayda partiyanın strukturunda yeni seçimlərin edilməsi, YAP-ın yeni Nizamnaməsinin qəbulu təşkilati nöqteyi-nəzərdən xüsusi önəm daşımaqla bərabər, partiyanın fəaliyyətinin stimullaşdırılmasına və səmərəlilik səviyyəsinin artırılmasına əhəmiyyətli töhfələr verəcəyi şübhəsizdir.

Qeyd edək ki, konfransda YAP Nəsimi rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Böyük Britaniyanın “The Independent” qəzeti Şuşa Bəyannaməsindən yazır

**Böyük Britaniyanın “The Independent” onlayn qəzeti Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi barədə məqalə yayıb. Belə ki, “Türkiyə və Azərbaycan liderləri işğaldan azad olunmuş ərazilərdə danışıqlar aparırlar” sərlövhəli məqalədə Türkiyə Prezidentinin işğaldan azad edilmiş bölgələrə səfərindən, Azərbaycan Prezidenti İlham Əliyevlə birgə imzaladıqları Bəyannamədən bəhs olunur.**




Qeyd edilir ki, əsrlər boyu Azərbaycan mədəniyyətinin mərkəzi olan Şuşa 1992-ci ildə Ermənistanın nəzarətinə keçsə də, 2020-ci il noyabrın 8-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilib. Strateji baxımdan mühüm əhəmiyyət kəsb edən Şuşada Rəcəb Tayyib Ərdoğan və Prezident İlham Əliyev arasında aparılan danışıqlar zamanı iki ölkənin təhlükəsizlik də daxil olmaqla, bir neçə sahədə əməkdaşlığının dərinləşdirilməsinə yönəlmiş Bəyannamə imzalanıb.

Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin Bəyannamənin imzalanmasından sonra səsləndirdiyi fikirlər də yer alıb.

Həmçinin məqalədə Şuşa şəhəri Azərbaycan tərəfindən geri alındıqdan sonra onu ziyarət edən ilk xarici liderin məhz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olduğu da vurğulanıb. Qeyd edilib ki, Türkiyə Prezidenti Şuşada bu ölkənin konsulluğunun açılacağı anonsunu verib.

Yazıda ötən ilin sentyabr-noyabr aylarında baş verən müharibə zamanı Azərbaycan Ordusunun qısa müddətdə Ermənistan silahlı qüvvələrini darmadağın etməsindən də danışılır. Bildirilir ki, Azərbaycan və Rusiya prezidentlərinin, həmçinin Ermənistanın baş nazirinin noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanatla müharibəyə son qoyulub və Ermənistan 30 ilə yaxın işğal altında saxladığı əraziləri tərk edib. Üçtərəfli Bəyanat Ermənistanda siyasi böhrana səbəb olub və baş nazir vəzifəsini icra edən Nikol Paşinyan növbədənkənar parlament seçkiləri təyin etmək məcburiyyətində qalıb.

## “Üçtərəfli bəyanatların şərtlərinin yerinə yetirilməsi üçün geniş iş görülsə də...”



“Ermənistanda dərin siyasi böhran yaranmışdı. Bunun məntiqi nəticəsi olaraq orada növbədənkənar parlament seçkiləri keçirilib və yeni hökumətin formalaşması gözlənilir. Hesab edirik ki, bu proseslərin nəticəsi olaraq Ermənistan siyasi rəhbərliyi həmin böhranın real nəticələrini düzgün başa düşəcək və düzgün nəticələr çıxaracaq”. SİA xəbər verir ki, bunu xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda rəsmi səfərdə olan Qazaxıstan baş nazirinin müavini - xarici işlər naziri Muxtar Tileuberdi ilə görüşdən sonra bəyanatında deyib.

O bildirib ki, Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanmış üçtərəfli bəyanatların şərtlərinin yerinə yetirilməsi üçün geniş iş görülsə də, bu sahədə bəzi ləngimələr müşahidə olunub: “Bunun əsas səbəbləri Ermənistanda müşahidə olunan siyasi böhran idi”. “Bir çoxları Ermənistanda bu siyasi böhranın əsas səbəbini Ermənistanın 44 günlük II Qarabağ müharibəsində aldığı ağır məğlubiyyətdə görürlər. Belə bir siyasi böhranın səbəbi Ermənistanın uzun illər ərazində beynəlxalq hüququ pozaraq 20-ci əsrin sonda və 21-ci əsrdə dövlətlərin beynəlxalq sərhədlərinin güc yolu ilə dəyişdirməsi cəhdi, qonşu ölkəyə qarşı həyata keçirdiyi təcavüz olub”, - nazir vurğulayıb.

## MEDİA beynəlxalq əlaqələrini genişləndirir

### Aljazeera Media İnstitutu ilə əməkdaşlıq məsələləri müzakirə olunub



Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda səfərdə olan Aljazeera Media İnstitutunun nümayəndə heyəti ilə görüşüb. Agentlikdən SİA-ya bildirilib ki, hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə ikitərəfli formatlarda səmərəli əməkdaşlığı, inkişaf perspektivləri məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

İcraçı direktor Əhməd İsmayılov Media Agentliyinin fəaliyyəti barədə qonaqlara məlumat verib. Vurğulanıb ki, belə səfərlərin təşkili tərəflər arasında əməkdaşlıq platformasının yaradılmasına töhfə olacaq. İkitərəfli dialoqun Azərbaycanda yeni media strategiyasının müəyyən olunmasında əhəmiyyəti qeyd olunub.

Aljazeera Media İnstitutunun Yeni layihələr üzrə meneceri Montaser Maray Azərbaycana səfərdən məmnunluq ifadə edərək, Media Agentliyi və “ADA” Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə keçirilən silsilə seminarların əhəmiyyətinə toxunub. Bildirilib ki, media sahəsində mövcud problemlərə fərqli perspektivlərdən yanaşmaq üçün təcrübə mübadiləsinin aparılması vacibdir. Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib. Qeyd olunub ki, gələcəkdə ikitərəfli səfərlərin təşkili planlaşdırılır.

## 28 nəfər yoluxub, 1 nəfər vəfat edib




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 28 yeni yoluxma faktı qeydə alınıb, 49 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 335 521 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 329 599 nəfər müalicə olunaraq sağalıb, 4 963 nəfər vəfat edib, aktiv xəstə sayı 959 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 115, ötən müddət ərzində isə ümumilikdə 3 680 977 test aparılıb.

# Qırğız siyasətçi: Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının bariz nümunəsidir



Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının bariz nümunəsidir. Deyərdim ki, türk dövlətləri arasında bütün sahələrdə əməkdaşlığın ən yaxşı nümunəsini məhz Azərbaycan və Türkiyə yaradıb. Əlaqələr mədəni-humanitar, iqtisadi sahədə fəaliyyətin genişləndirilməsindən tutmuş hərbi sahədəki əməkdaşlığa qədər müttəfiqlik münasibətlərini əhatə edir. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi siyasi və hərbi dəstək Azərbaycanın öz torpaqlarını azad etməsi istiqamətində mühüm və həlledici amildir. Bu fikirləri AZƏRTAC-ın müxbirinə açıqlamasında “Kırqız El” Partiyasının rəhbəri, “Manas Ordo” Fondunun sədri Anvarbek Usupbayev deyib.

A.Usupbayev bildirib ki, bu Qələbə təkcə 28 ildən sonra öz torpaqlarını azad edən Azərbaycanın deyil, həm də Türkiyənin, türkdilli dövlətlərin və ədalətin Qələbəsidir. O deyib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya, iyunun 15-də isə Ermənistan işğalından azad edilən qədim Şuşa şəhərinə səfəri, orada Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü, Şuşa Bəyannaməsinin imzalanması Ermənistana və onların havadarlarına mesaj oldu.

A.Usupbayev söyləyib: “Şuşa Bəyannaməsi Qafqaz regionunda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində mühüm bir addımdır. Mənim Qars müqaviləsindən xəbərim var və bu Bəyannamə həm də Qars müqaviləsinin davamı olan tarixi bir sənəddir. Bəyannamə həm də nəqliyyat-kommunikasiya əlaqələrinin bərpa olunması istiqamətində böyük əhəmiyyət daşıyır. Azərbaycan Ermənistanı regiondakı bütün nəqliyyat-kommunikasiya dəhlizlərindən kənarda qoyub. Belə ki, Zəngəzur dəhlizinin açılması təkcə Ermənistana və Azərbaycana deyil, həmçinin Türkiyə, İran, Rusiya və digər ölkələrin iqtisadiyyatına güclü təsir göstərəcək, Şərqlə Qərbi birləşdirəcək çox mühüm dəhliz olacaq. Bu dəhlizdən isə iqtisadiyyatı bərbad vəziyyətdə olan Ermənistan daha çox qazanacaq”.

## Ukrayna kanalında işğaldan azad olunmuş ərazilərimizdə aparılan yenidənqurma işləri ilə bağlı reportaj yayımlanıb




Ukraynanın nüfuzlu “İnter” kanalında Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan yenidənqurma işləri ilə bağlı xüsusi reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, kanalın xəbərlər proqramında yayımlanan reportajda Füzulidən olan məcburi köçkündən, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevdən, “Qarabağ Dirçəliş Fondu”nun İdarə Heyətinin sədri Rəhman Hacıyevdən müsahibələr alınıb. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işləri, Füzuli aeroportunda aparılan işlər, minalanmış ərazilər, iri iqtisadi layihələr barədə ətraflı danışılıb. Reportajda qeyd olunub ki, Azərbaycan bütün gücünü işğaldan azad edilən ərazilərin yenidən qurulmasına yönəldib. Həmin ərazilərdə aeroportlar tikilir, yeni magistral yollar, körpülər salınır. Bundan başqa, işğaldan azad olunan ərazilərin elektrik enerjisi ilə təminatı üçün yeni elektrik stansiyaları inşa edilir.

“Dağlıq Qarabağ nəhayət dinc həyata qayıdır. Azərbaycan bu əraziləri dirçəltməyə başlayıb. Avqust ayında Şuşa şəhərinə aparan yolun açılışı olacaq” - deyə ukraynalı jurnalist qeyd edib. Reportajda, həmçinin Ermənistan minalanmış ərazilərin xəritəsini verməyindən, insanlar mina partlayışının qurbanı olmasında, Türkiyə Prezidenti Rəcəp Tayyib Ərdoğanın Qarabağa səfəri, Şuşa Bəyannaməsinin imzalanmasından da danışılıb.

# Azərbaycan güclü və qalib dövlət olaraq bir daha bölgədə və dünyada sülhün və rifahın bərqərar olması üçün öz töhfəsini təqdim edir

*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynovanın yap.org.az-a müsahibəsi*

***- Hicran xanım, Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərində hansı töhfələr verəcəkdir?***

- 15 iyun- Azərbaycan tarixində ikinci dəfə xüsusi bir mahiyyət daşıyan günə çevrildi. 28 il əvvəl bu gündə Azərbaycan parçalanmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən qurtardısa, bu gün isə Azərbaycan güclü və qalib dövlət olaraq bir daha bölgədə və dünyada sülhün və rifahın bərqərar olması üçün öz töhfəsini təqdim edir. Bu baxımdan da Şuşa Bəyannaməsi müstəsna siyasi, mənəvi və tarixi əhəmiyyətə malikdir. Bu sənəd Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətlərini daha da möhkəmləndirərəkyeni bir mərhələyə qədəm qoyur. Cənab Prezident İlham Əliyevin dediyi kimi: "Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır". Azərbaycan və Türkiyə arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsində birgə milli mənafelər baxımından siyasi, humanitar, iqtisadi, elm, təhsil, mədəniyyət, hərbi və təhlükəsizlik sahələrində, o cümlədən media sahəsində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi xüsusi yer tutur. Azərbaycan ilə Türkiyənin əməkdaşlıq əlaqələri unikal müttəfiqlik nümunəsidir. Və bunun tarixi çox qədimdir. Çünki bizi bir çox amillər birləşdirir. Ortaq etnik köklərimiz, mədəniyyətimiz, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, tarixən bir-birimizə arxa-dayaq olmağımızbu birliyi, bu qardaşlığı, bu təəssübkeşliyi təmin etmişdir.Prezident İlham Əliyevin qeyd etdiyi kimi: " Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi: "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür".Ona görə də birmənalı vurğulaya bilərik ki, Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyənin qardaşlığını bütün dünyaya bildirən bir mesajdır.

***- Bu Bəyannamədə həm də Qars müqaviləsinə istinad edilir, Sizin fikrinizcə, bunun tarixi əhəmiyyəti nədən ibarətdir?***



- Müstəqilliyimizin ilk günündən, xüsusilə də Vətən Müharibəsi günlərində Azərbaycana böyük mənəvi və siyasi dəstək verən Türkiyə Prezidenti R.T. Ərdoğanın bu səfərivə imzalanan Bəyannamə Ermənistandakı revanşist qüvvələrə və onların havadarlarına, eləcə də regionda sülh prosesini ləngitməyə çalışan qüvvələrə verilən xüsusi və mühüm bir mesajdır.Həmçinin, bu sənəd Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regiondayenidən qarışıqlıq yaratmaq istədikləribir zamanda imzalandı. Ölkə başçısı İlham Əliyev də çıxışında qeyd etdi ki, " Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir".Qars müqaviləsinin ləğv edilməsi ilə bağlı ayrı-ayrı vaxtlarda həm ermənilər, həm də onlara havadarlıq edən qüvvələr fikirlər səsləndirmiş və bunun üçün cəhdlər göstərmişlər. Lakin Şuşada imzalananBəyannaməAzərbaycan və Türkiyə müttəfiqliyini daha da möhkəmləndirdi. Eyni zamanda, Qarabağın təhlükəsizliyi və qısa müddətdə yenidən qurulması məqsədilə bundan sonra da hər iki ölkənin imkanlarını səfərbər ediləcəyini rəsmən təsdiqlədi. Müqavilənin imzalandığı məkanın seçilməsi də xüsusi bir rəmzi, simvolik məna daşıyırdı. Birincisi, dünya ictimaiyyəti bir dahaerməni barbarlığını, vandalizmini görsünlər, 30 ilə yaxın əsarətdə saxladıqları şəhərləri, kəndləri necə dağıdıblar, talan ediblər. İkincisi isə, erməni işğalçılarının xaraba qoyduğu binanın uçurulmuş divarları fonunda hər iki dövlətin başçısı bütün dünyaya sülhün, sakit şəraitdə yaşamağın vacibliyi mesajını göndərirlər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandünya ictimaiyyətini bir daha xalqımızınermənı faşizmi üzərində qələbəsini qəbul etməyə və yaranmış yeni reallıqdan faydalanmağa çağırdı:" Bölgədə təsiri olan hər kəsi həqiqətləri görməyə, Azərbaycan xalqının Zəfərini qəbul etməyə və gələcəyə baxmağa dəvət edirik. Atəşkəs razılaşmasından sonra artıq bölgədə bütün tərəflər üçün yeni əməkdaşlıq imkanları yaranıb. Bölgədəki yeni reallığa fayda vermək istəyən hər kəsin nifrət və təhrik siyasətindən əl çəkərək sülh və əməkdaşlığı təşviq etməyə istiqamətlənməsi əsas şərtdir". Prezident İlham Əliyevin də bildirdiyi kimi, "Bu səfərin tarixi əhəmiyyəti bundan sonra uzun illər ərzində dillərdə olacaqdır".

***- Bəyannamədə Zəngəzur dəhlizinin reallaşması da öz əksini tapır, bu layihə reallaşarsa, bölgədə yaranacaq vəziyyəti necə qiymətləndirərdiniz?***

- Həmin sənəddə diqqəti cəlb edən məsələlərdən biri də beynəlxalq əhəmiyyət kəsb edən layihələrin reallaşmasıdır. Azərbaycanın Cənubi Zəngəzur dəhlizi böyük geosiyasi və iqtisadi əhəmiyyətə malikdir. Bu layihənin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaqdır. Bu layihə nəinki bölgə, region üçün, həm də dünya üçün vacib və mühüm əhəmiyyət daşıyır. Şuşa Bəyannaməsi Cənub-Şərqi Avropada və Qafqazda iqtisadi artımın gücləndirilməsi, infrastrukturun inkişafı və regional təhlükəsizliyin qorunması üçün çox vacib vasitədir. Zəngəzur dəhlizinin açılması İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Cənab İlham Əliyev öz çıxışında bildirdi ki, " Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq". Bu həmin layihənin reallaşması ilə bağlı yaranmış müxtəlif fikirlər ən qəti və aydın cavab oldu. Beləliklə, bir daha qeyd etmək lazımdır ki, Bəyannamədə göstərilən bütün müddəalar keyfiyyətcə daha yüksək işbirliyinin təminatıdır. İki qardaş dövlət arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi müstəsna siyasi, mənəvi və tarixi əhəmiyyətə malikdir.

***- Hicran xanım, necə fikirləşirsiniz, Şuşa Bəyannaməsi ölkəmizin xarici siyasətində və diplomatiyasında hansı dəyişikliklərin yaranmasına səbəb olacaqdır?***

- "Bildiyiniz kimi, Azərbaycan həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq formatında balanslı bir siyasət aparır. Burada cənab Prezident İlham Əliyevin Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı tədbirdə dedikləri bəzi fikirləri xatırlamaq istərdim. Artıq hər kəs qəbul edir ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı və o öz tarixi torpaqlarınızı azad etməklə ərazi bütövlüyünü bərpa etdi. Bu bütövlükdə regionda yeni vəziyyət yaratmışdır. Bu baxımdan regionun siyasi və iqtisadi aktuallığı durmadan artır. Cənubi Qafqazda regional inkişaf və əməkdaşlıq perspektivləri qlobal gündəlikdə duran mühüm məsələlərdən birinə çevrilmişdir. Bu isə yeni perspektivlərin yaranmasına səbəb olur. Cənab İlham Əliyev bir daha qeyd edir ki, 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edir. Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü Azərbaycan fəal dəstəkləyir. Azərbaycan beynəlxalq maliyyə institutları ilə Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və Çin tərəfindən təsis olunmuş İnfrastruktur və İnvestisiya Bankı fəal əməkdaşlıq edir. Neft-qaz, enerji, nəqliyyat və logistika, kommunikasiya kimi iqtisadi layihələr regional əməkdaşlığı qaçılmaz edir. Cənab prezidentin irəli sürdüyü "Azərbaycan toqquşma məkanı deyil, əməkdaşlıq yeri olmalıdır" tezisi bir daha dövlətimizin əməkdaşlıq səylərinin aydın təzahürüdür. Bu gün Azərbaycanın həm regionda, həm də bütövlükdə dünyada mühüm strateji əməkdaşa çevrildiyini, onun nüfuzunun getdikcə daha da artdığını müşahidə edirik.

***- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edərək Azərbaycan-Türkiyə qardaşlığının daha da möhkəmləndiyini qeyd etdi. Gələcək addımlarla bağlı bəzi fikirlər söylədi. Sizin gözləntiləriniz necədir?***

- Azərbaycan və Türkiyə bütün tarixi dövrlərdə bir-birinin yanında olublar. Bu gün Türkiyə və Azərbaycan sevincini və kədərini paylaşan iki dövlətdir. Eyni zamanda, bu dost və səmimi münasibətlər o qədər inkişaf etmişdir ki, hətta müxtəlif tədbirlərdə belə bir-birinin yoxluğunu auditoriya hiss edə bilmir. Belə nümunələr çoxdur. Türkiyə hər zaman öz mənəvi və siyasi dəstəyini göstərmişdir. Bu gün də biz bu dəstəyi görürük. Cənab İlham Əliyevin dediyi kimi"Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır". Milli Məclisdə çıxış edən hörmətli Rəcəb Tayibb Ərdoğan bildirdi ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun şanlı Qələbəsinin Qafqazda qanayan bir yaranın qapanmış, bölgədə davamlı sülh və sabitlik üçün böyük fürsət yaranmışdır. Əlbəttə ki, yaranmış yeni reallıq, yeni imkanlar açır. Türkiyə Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisindən səslənən əsas fikir, çağırış ondan ibarətdir ki, "Qafqazdakı sülh və sabitlikdən təkcə Azərbaycan deyil, Ermənistan da daxil olmaqla, bütün bölgə ölkələri, hətta bütün dünya qazanacaq. Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydaların dəyəri zaman keçdikcə daha yaxşı dərk ediləcək". Zaman keçdikcə mənzərə daha da aydınlaşır, və biz ABŞ və Avropa Birliyinin, eləcə də digər dövlətlərin və region ölkələrin yaranmış yeni vəziyyəti daha düzgün qiymətləndirməyə başladığını müşahidə edəcəyik. Vətən müahirbəsində çaldığımız qələbə bütövlükdə ölkələrin inkişafına əlavə imkanlar yaradacaq, yeni beynəlxalq əməkdaşlıq platformasının formalaşmasına müsbət təsir göstərəcəkdir. Prezident Rəcəb Tayyib Ərdoğanın qeyd etdiyi altılıq platformasının yaranması ilə (Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan) bölgədə sabitlik hökm sürəcək və düşmənçiliklər aradan qalxacaqdır. Davamlı sülhə gedən yol bölgədəki bütün xalqların və dövlətlərin qarşılıqlı etimad və əməkdaşlığından keçir. Həmin mühitin yaradılması üçün ən gözəl əsaslar Azərbaycanın tarixi, mədəniyyəti və dövlət siyasətidir. Əlbəttə ki, bu ideyanın reallaşması üçün işlər görülməlidir. Digər mühüm məsələ isə Naxçıvan ilə Bakını bir-biri ilə birləşdirəcək Zəngəzur dəhlizi layihəsidir. Bu layihənin misilsiz əhəmiyyəti vardır. Cənab Ərdoğanın toxunduğu məsələlərdən biri də dünya ictimaiyyətinin həqiqətləri bilməsidir. O, bildirdi ki, "Ermənistanın vəhşi davranışı Qarabağın kimin Vətəni olduğunu göstərir. Azərbaycanlılar otuz il əvvəl Qarabağdan çıxmaq məcburiyyətində qalanda heç bir yeri dağıtmadılar, heç bir evi yandırmadılar. Çünki insan öz Vətənini dağıda bilməz, öz Vətənini yandıra bilməz". Ölkə başçısı İlham Əliyev işğaldan azad olunan ərazilərimizə səfər edərkən hər dəfə erməni faşizmini, erməni barbarlığını bütün dünyaya nümayiş etdirir. İnsan öz ölkəsini, doğulduğu, böyüdüyü evini, yurdunu xarabaya çevirə bilməz, deməli, sən bu yerə yad olmalısan, mədəni- tarixi-dini abidələrə, tikililərə biganə olmalısan ki, onu dağıdasan, məhv edəsən. Bu gün Qarabağa səfər edən diplomatik nümayəndələr, jurnalistlər və digər beynəlxalq ictimaiyyətin nümayəndələri əyani şəkildə ermənilər tərəfindən dağıdılmış kəndləri, şəhərləri görürlər. Hazırda Qarabağda quruculuq işləri aparılır, yollar sürətlə inşa edilir, su kəmərləri çəkilir, elektrik stansiyaları qurulur və istifadəyə verilir. İnfrastruktur obyektləri tikilir. İşğaldan azad olunmuş ərazilərin dirçəlməsində Türkiyə də öz töhfəsini verəcəkdir.

# Milli Məclisdən dünyaya mesaj - Azərbaycan-Türkyə daim bir yerdədir!

*Prezident Rəcəb Tayyib Ərdoğan: "Qarabağı azad edən Azərbaycanın Milli Məclisində olmaqdan şadam"*

**Dünyada analoqu olmayan qardaşlığın, Azərbaycan-Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan bu birlik nə dünən olub, nə də bu günü. Sözsüz ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq.**



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisin xüsusi iclasında çıxışı zaman Azərbaycan parlamentində Qarabağın işğaldan azad edilməsindən sonra Azərbaycanın Milli Məclisində olmaqdan şad olduğunu deyib: "Qarabağı azad edən Azərbaycanın Milli Məclisində olmaqdan şadam". Türkiyə Prezidenti R.Ərdoğan bildirib ki, Qarabağın işğaldan azad edilməsi Azərbaycanın müstəqilliyinin 30 ilinin ən önəmili hadisəsidir.

### "Üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq"

"Azərbaycanlı qardaşlarımızla üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq. Canı yananlar, qanı tökülənlər, maddi və mənəvi ziyan çəkənlər sadəcə Qarabağda yaşayan insanlardır. Asan deyil, 30 il". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Milli Məclisində çıxışı zamanı deyib. Onun sözlərinə görə, 30 ildən sonra işğal altında olan torpaqlar sahiblərinə qovuşdu: "Böyük bir liderlik göstərərək bu zəfəri Azərbaycana qazandıran Ali Baş Komandan İlham Əliyevi bir daha təbrik edirəm".

### Türkiyə Prezidenti məcburi köçkünlərə çağırış edib

Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxışı zamanı bildirib ki, Qarabağ Zəfərindən kimsə narahat olmasın: "Çünki bu Zəfər ədalətin, barışın, qəlbin Zəfəridir". Onun sözlərinə görə, Qarabağın hər küncünə sükut və ümid hakim olub: "İnşallah sonrakı gəlişimizdə evlərindən didərgin düşən insanların yerlərinə qayıdışının sevincini yaşayacağıq. Onlara mən də çağırış edirəm. Sizin evləriniz bərpa olunur. Bir müddət sonra evinizə qayıdacaqsınız".

Türkiyə Prezidenti Milli Məclisin xüsusi iclasında çıxışı zamanı bildirib ki, Qarabağı birlikdə inşa edəcəyik. Onun sözlərinə görə, Qarabağı və işğal altındakı Azərbaycan torpaqlarını 30 il məhv edənləri görməyənlər, Azərbaycanın azadlıq mücadiləsini əngəlləmək üçün səfərbər olanlar indi gəlib Füzulini, Qarabağı görsünlər: "Hər şey ortadadır. Dünən oraların halını gördük. Azərbaycanlılar 30 il öncə Qarabağdan çıxmaq məcburiyyətində qaldıqda heç bir evi yandırmadılar, çünki insan öz evini yandırmaz, ancaq ermənilər oralardan gedəndə hər şeyi yandırdılar, çünki oralar onların vətəni deyildi. Ancaq biz oraları yenidən inşa edərək, yeni bir Qarabağ ərsəyə gətirəcəyik".

"Şuşa bu gün öz mədəniyyəti ilə ayağa qalxır. Cıdır düzündə təşkil edilən Xarıbülbül festifalı dünyaya verilən açıq bir mesaj idi. Şuşanın gələcəkdə Türk dünyasının paytaxtı olmasını görməkdən məmnun olarıq. Dünyanın 4 tərəfindən olan türk sənət adamlarının Şuşaya gəlməsi Şuşaya gözəl bir salam olardı" - deyə, Ərdoğan əlavə edib.

### Türkiyə Prezidenti Zəngəzur dəhlizindən danışdı

"Zəngəzur dəhlizindən ermənilər də asan şəkildə Moskvaya və bütün dünyaya çıxa biləcəklər, onlar özlərini nə qədər əngəllədiyini görəcəklər". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisin xüsusi iclasında çıxışı zamanı deyib. Türkiyə Prezidenti bildirib ki, regionda yeni altılıq əməkdaşlıq platforması imkanları yaranıb: "Gürcüstanın bəzi sualları var idi və mən Gürcüstanın baş nazirinin son səfəri zamanı ona bunun faydalarını izah etdim. Çünki bu bölgənin sülhə ehtiyacı var, bunu etməliyik. Ermənistanın Azərbaycanla münasibətləri yaxşılaşdıqca biz də lazımi addımlar atacağıq. Türkiyənin Ermənistana faydaları saydıqca bitməz".

### "Bu zəfərdən kimsə rahatsız olmasın, çünki bu zülmün deyil, sülhün zəfəridir"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxışı zamanı deyib ki, Qarabağ zəfərinin Azərbaycan və dünyaya gətirəcəyi faydalar zaman keçdikcə hiss olunacaq və bu zəfərdən kimsə rahatsız olmasın, çünki bu zülmün deyil, sülhün zəfəridir: "Qarabağın hər küncünə hüzur hakim olub. Azərbaycanlı qardaşlarımız yuvalarına dönəcək. Gələcəkdə buraya yenə gələndə azərbaycanlı qardaşlarımızın öz doğma yurdlarına qayıtmasını görmək bizi şad edəcək. Hazırda yollar sürətlə tikilir, infrastruktur bərpa olunur və bizlər də bölgədə məktəb, xəstəxana və buna bənzər bir çox binalar tikəcəyik".

"Şuşanın gələcəkdə türk dünyasının mədəniyyət paytaxtı olmasını görməkdən məmnun olarıq",-deyən Türkiyə Prezidenti bildirib ki, Şuşa ədəbiyyatın mərkəzi vəzifəsini qoruyub: "Bu şəhər dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Natəvanın və digər şairlərin yurdudur. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi bu mənada dünyaya verilən açıq mesajdır. Gələn il Şuşanın türk dünyasının mədəniyyət paytaxtı olmasından şərəf duyarıq. Əlbəttə, Şuşa, Qarabağ deyil, türk dünyasının bütün yerləri böyük şəxsiyyətlər yetişdirib".

### "Yeni bir Qarabağ ərsəyə gətirəcəyik"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxışı zamanı bildirib ki, iğaldan azad olunan əraziləri yenidən inşa edərək yeni bir Qarabağ ərsəyə gətirəcəyik. Onun sözlərinə görə, Qarabağı və işğal altındakı Azərbaycan torpaqlarını 30 il məhv edənləri görməyənlər, Azərbaycanın azadlıq mücadiləsini əngəlləmək üçün səfərbər olanlar indi gəlib Füzulini, Qarabağı görsünlər: "Hər şey ortadadır. Dünən oraların halını gördük. Azərbaycanlılar 30 il öncə Qarabağdan çıxmaq məcburiyyətində qaldıqda heç bir evi yandırmadılar, çünki insan öz evini yandırmaz, ancaq ermənilər oralardan gedəndə hər şeyi yandırdılar, çünki oralar onların vətəni deyildi".

### "Bütün dünya bilsin ki, Azərbaycanın yanında olacağıq, Azərbaycanın sevinci sevincimiz, azadlığı azadlığımız, kədəri kədərimizdir"

Türkiyə Prezidenti Qarabağın işğaldan azad edilməsi Azərbaycanın müstəqilliyinin 30 ilinin ən önəmili hadisə olduğunu deyərək bildirib ki, 30 il sonra bu torpaqlar öz sahiblərinə qovuşdu: "Bu zəfəri və barışı Azərbaycan xalqına qazandıran, Prezident, qardaşım İlham Əliyevə bir daha təşəkkür edirəm. Azərbaycan xalqını bu qələbə münasibətilə təbrik edirəm. Türkiyə həm dövlət, həm də millət olaraq qardaş Azərbaycanın yanında yer alıb. Bu gün də Azərbaycanın yanıdayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdılarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdisə, biz də bu gün və gələcədə bərabər olacağıq. Azərbaycanın sevinci sevincimiz, azadlığı azadlığımız, kədəri kədərimizdir".

İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış vəziyyət barədə danışan Türkiyə Prezidenti deyib: "Qafqazda sülh və sabitlikdən təkcə Azərbaycan deyil, Ermənistan da daxil olmaqla, bütün bölgə ölkələri, hətta bütün dünya qazanacaq. Biz də azərbaycanlı qardaşlarımızla bölgənin tamamilə inkişaf etdirilməsi, rifahın yüksəlməsi, əmin-amanlığın kök salması üçün üzərimizə düşəni yerinə yetirməyə bütün səmimiyyətimizlə hazırıq".

Bəli, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu belə olacaq. Çünki Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!".

***RƏFİQƏ KAMALQIZI***

## BMT-nin qarşısında azərbaycanlı jurnalistlər yad edilib




Amerika Azərbaycanlılarının Koordinasiya Şurasının idarə heyətinin üzvü, Azərbaycan Nyu-York Assosiasiyasının rəhbəri Ercan Yerdələnlinin təşkilatçılığı ilə mina partlayışında həlak olmuş azərbaycanlı jurnalistlərin yad edilməsi ilə əlaqədar Nyu-York şəhərində silsilə aksiyalar keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən "İki sahil"ə verilən məlumata görə, BMT-nin mənzil qərargahı, NBS Studios və "Associated Press" kimi nüfuzlu media qurumlarının inzibati binaları qarşısında təşkil edilmiş sərgilərin məqsədi Kəlbəcər rayonunda xidməti vəzifələrini yerinə yetirən azərbaycanlı jurnalistlər Məhərrəm İbrahimovun və Sirac Abışovun, eləcə də yerli məmurun mina partlayışı nəticəsində həlak olmasına, Ermənistanın hərbi cinayətləri davam etdirməsinə və mina xəritələrini verməkdən imtinasına diqqəti cəlb etmək olub.

Sərgilərdə jurnalistlərin fotolarını və Ermənistanın mina cinayətlərini əks etdirən posterlər nümayiş etdirilib. Posterlərdə "Mina xəritələrini verin!", "Azərbaycanlı jurnalistlərə qarşı Ermənistanın müharibə cinayətləri", "Ermənistan qanunlara əməl etmir", "Ermənistan azərbaycanlı jurnalistlərin qatilidir!", "Bizi minalardan xilas edin!" kimi şüarlar nəzərə çatdırılıb.

Tədbir zamanı yerli sakinlərə rəsmi İrəvanın xalqımıza qarşı törətdiyi hərbi cinayətlər və təxribatlar barədə geniş məlumat verilib.

Ercan Yerdələnli bu aksiyalarla dünya ictimaiyyətini və beynəlxalq medianı Ermənistanın təxribatçı hərəkətlərinə və azərbaycanlı jurnalistlərin xidməti vəzifələrini yerinə yetirərkən həlak olmalarına biganə qalmamağa, Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləməyə çağırıb.

## Daha 3 erməni hərbçinin meyitinin qalıqları təhvil verildi

Qarabağdakı döyüşlər zamanı ölən daha 3 erməni hərbçinin cəsədinin qalıqları qarşı tərəfə təhvil verilib. "İki sahil" xəbər verir ki, bu barədə "Sputnik Armeniya" məlumat yayıb. Meyitlər Füzuli rayonu ərazisində aparılan axtarışlar zamanı aşkarlanıb. Bildirilir ki, ölən hərbçilərin şəxsiyyəti məhkəmə-tibbi ekspertizasından sonra müəyyənləşdiriləcək. Bununla da indiyədək tapılan erməni hərbçilərinin meyitlərinin sayı 1 583-ə çatıb.

# YAP Səbail rayon "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının idarə heyətinin iclası keçirilib

**YAP Səbail rayon "Dövlət Auditi" (Azərbaycan Respublikası Hesablama Palatası) ərazi ilk partiya təşkilatında İdarə Heyətinin iclası keçirildi. İclasda YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev, Azərbaycan Respublikası Hesablama Palatasının Aparat rəhbəri Vüqar İbrahimov və "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının üzvləri iştirak etdilər. İclasda "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının İdarə Heyətinin yeni tərkibi, sədri, sədrin müavini və katib seçildi.**





İclası açıq elan edən Azərbaycan Respublikası Hesablama Palatasının Aparat rəhbəri Vüqar İbrahimov gündəlikdə duran məsələlər haqda məlumat verdi və qeyd etdi ki, "Dövlət Auditi" ərazi ilk partiya təşkilatına təsis olunduğu gündən sədrlik edən Süleymanov Məhəmmədəli Bilal oğlu təqaüdə çıxması ilə əlaqədar İPT sədri vəzifəsindən azad edilməsini xahiş edib. Vurğulandı ki, uzun illər Hesablama Palatasının Aparat rəhbəri vəzifəsində çalışan və məsul vəzifəsinin öhdəsindən layiqincə gələn M.Süleymanov "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının sədri kimi partiyanın bütün tapşırıqlarını və öhdəliklərini vaxtlı-vaxtında, səliqəli şəkildə icra etmiş, həm Hesablama Palatasının kollektivinin, həm də Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının hörmətini qazanmışdır. V.İbrahimov təqaüdə çıxan M.Süleymanova nümunəvi fəaliyyətinə görə təşəkkür etdi, ona möhkəm cansağlığı, uzun sağlam ömür arzuladı.

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov başda olmaqla Palatının bütün kollektivini və "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının üzvlərini səmimi qəlbdən salamlayan YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev "Dövlət Auditi" İPT-nin YAP Səbail rayon təşkilatının qeydiyyatında olan ilk partiya təşkilatları arasında ən fəal və nizam-intizamlı təşkilatlardan biri olduğunu qeyd etdi. Xüsusi vurğulandı ki, "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının sabiq sədri Məhəmmədəli Süleymanov ötən dövr ərzində həm ərazi ilk partiya təşkilatının, həm də YAP Səbail rayon təşkilatının fəaliyyətində yaxından iştirak etmiş, peşəkarlığı, ağsaqqallığı, dövlətçiliyə və partiyamıza olan sədaqəti, eləcə də təşəbbüskarlığı və şəxsi nümunəsi ilə partiya işinə mühüm töhfələr bəxş etmişdir. Sədr bildirdi ki, M.Süleymanov nümunəvi fəaliyyətinə görə YAP Səbail rayon təşkilatının Fəxri diplomuna layiq görülmüşdür. Ş.Hacıyev 44 günlük Vətən müharibəsində möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun müstəqil Azərbaycanın yeni Zəfər tarixini yazması, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi, xalqımızın Prezidentimizin ətrafında sıx birləşərək əzəli düşmənimizin belini sındıran, başını əzən "dəmir yumruğa" çevrilməsi, ölkə başçısının Vətən müharibəsi günlərində beynəlxalq informasiya məkanında təkbaşına cəbhə açması və bütün dünya ictimaiyyətinin diqqətinə Azərbaycanın haqlı mübarizəsi haqqında həqiqətləri çatdırması, eləcə də işğalçı Ermənistanın yalanlarının, illərlə formalaşdırdıqları miflərin darmadağın edilməsi, ermənilərin əsl xislətinin ifşa olunması və onların işğalçı, terrorist və vandal bir toplum kimi dünya ictimaiyyətinin gözündə tamamilə nüfuzdan düşməsi, Azərbaycanın işğaldan azad olunan torpaqlarında Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən möhtəşəm yenidənqurma, quruculuq və xalqımızın tarixi, mədəni, dini irsinin bərpası haqqında danışdı.Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya tarixi səfəri və Azərbaycanla Türkiyə arasında Şuşa şəhərində 100 ildən sonra imzalanan müttəfiqlik haqqında Birgə Bəyannamənin tarixi əhəmiyyəti haqqında ətraflı məlumat verən Ş.Hacıyev vurğuladı ki, Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi "Bir millət, iki dövlət" konsepsiyası əsrlərin sınağından çıxan Azərbaycan-Türkiyə qardaşlığını əbədi və sarsılmaz etdi, bu konsepsiya bu gün də uğurla davam etdirilir. Vətən müharibəsi günlərində Azərbaycan və Türkiyə sübut etdi ki, yeri gələndə biz bir millət, tək dövlət olmağı da bacarırıq. Şuşa Birgə Bəyannaməsi nəinki iki dövlət, bütün coğrafiya üçün sülhün, əməkdaşlığın, təhlükəsizliyin təminatı deməkdir.

Yeni Azərbaycan Partiyasının yaranma tarixi və keçdiyi şərəfli inkişaf yolu barədə geniş danışan Ş.Hacıyev respublikamızın və Səbail rayonunun ictimai-siyasi həyatında yaxından iştirak edən YAP Səbail rayon təşkilatının çoxşaxəli fəaliyyət istiqamətləri haqqında iclas iştirakçılarına ətraflı məlumat verdi. "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının üzvlərinin bütün bu işlərdə yaxından iştirakını yüksək qiymətləndirən Ş.Hacıyev Azərbaycan Respublikası Hesablama Palatasının rəhbərliyi başda olmaqla bütün kollektivinə və ərazi ilk partiya təşkilatının yeni seçiləcək İdarə Heyətinə uğurlar arzuladı və əminliyini ifadə etdi ki, yeni tərkib bu təşkilatda formalaşmış müsbət ənənələri eyni keyfiyyətdə və məsuliyyətlə davam etdirəcəkdir. Sonra gündəlikdə olan məsələlərin müzakirəsinə başlanıldı. İlk öncə İdarə Heyətinin 7 nəfərlik say tərkibi təklifi səsə qoyuldu və yekdilliklə təsdiqləndi. Sonra İdarə Heyətinə 7 nəfər namizədin adları səsləndirildi və siyahı səsə qoyularaq yekdilliklə qəbul olundu.

İdarə Heyətinin üzvləri 21 ildən çox auditor vəzifəsində məsuliyyətlə çalışmış, uzun müddət Hesablama Palatasında tutduğu məsul vəzifələrində öhdəliklərini layiqincə yerinə yetirmiş Həsənov Vaqif Muxtar oğlunun "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının sədri vəzifəsinə namizədliyini irəli sürdülər. Təklif səsə qoyuldu və yekdilliklə təsdiqləndi. Səsləndirilən təkliflərə və qəbul olunan qərarlara əsasən Həsənov Vaqif Muxtar oğlu "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının sədri, İbişzadə İbiş İPT-nin sədr müavini və İbrahimli Elvin Şakir oğlu İPT-nin katibi seçildi.Çıxış edən "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının keçmiş sədri Məhəmmədəli Süleymanov ilk partiya təşkilatının və onun fəaliyyətinə verilən yüksək qiymətə görə təşəkkür etdi. Bugünkü seçkilərin və İdarə Heyətinə yeni gənc üzvlərin seçilməsinin təqdirəlayiq olduğunu vurğulayan M.Süleymanov yeni seçilən sədrə və üzvlərə fəaliyyətlərində uğurlar arzuladı. Hesablama Palatasında YAP ərazi ilk partiya təşkilatının yaranması və partiya işinin inkişafında həm Hesablama Palatası, həm də YAP Səbail rayon təşkilatının rəhbərliyinin mühüm rolu, zəhməti olduğunu qeyd edən sabiq sədr bu təşkilatda partiya işinin bundan sonra da ən yüksək səviyyədə davam etdiriləcəyinə dair əminliyini ifadə etdi. "Dövlət Auditi" ərazi ilk partiya təşkilatının yeni seçilmiş sədri Vaqif Həsənov bildirdi ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və Azərbaycan ziyalılarının təşəbbüsü ilə ölkəmiz üçün ən taleyüklü məqamda yaranan və şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasının üzvü olmaq hər kəs üçün böyük şərəf və qürurdur. Çox sevindirici haldır ki, YAP bu gün ümumxalq partiyası kimi eyni ideyalara və prinsiplərə sadiqlik nümayiş etdirir. 44 günlük Vətən müharibəsində ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Azərbaycan torpaqlarını işğaldan azad etməsi Ulu Öndər Heydər Əliyev siyasətinin növbəti təntənəsi oldu. Ona göstərilən yüksək etimada görə təşəkkür edən V.Həsənov nümunəvi fəaliyyət göstərərək "Dövlət Auditi" ərazi ilk partiya təşkilatında formalaşdırılmış müsbət ənənələri eyni keyfiyyət müstəvisində davam etdirəcəklərinə dair əminliyini ifadə etdi.

***Rəfiqə***

## Dövlət qulluqçuları nə qədər maaş alır?

2021-ci il yanvarın 1-nə ölkədə dövlət qulluqçularının sayı 26,7 min nəfər olub ki, onların da 27,5 faizini qadınlar təşkil edir. Dövlət Statistika Komitəsindən SİA-ya verilən məlumata görə, dövlət qulluqçularının 6,4 faizi dövlət orqanlarında inzibati vəzifələrin ali - 3-cü təsnifatları, 3,5 faizi 4-cü təsnifatı, 12,3 faizi 5-ci təsnifatı, 8,4 faizi 6-cı təsnifatı, 48,8 faizi 7-ci təsnifatı, 20,6 faizi isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləyib.



Dövlət qulluqçularının 6,3 faizi 1 ilədək, 25,2 faizi 1 ildən 5 ilədək, 24,4 faizi 5 ildən 10 ilədək, 17,8 faizi 10 ildən 15 ilədək, 26,3 faizi isə 15 il və daha çox qulluq stajına malikdir. Dövlət qulluqçularının 2,7 faizini 25 yaşadək, 13,7 faizini 25-29 yaşda, 16,8 faizini 30-34 yaşda, 14,8 faizini 35-39 yaşda, 12,3 faizini 40-44 yaşda, 9,1 faizini 45-49 yaşda, 8,7 faizini 50-54 yaşda, 10,9 faizini 55-59 yaşda, 9,2 faizini 60-64 yaşda, 1,8 faizini 65 və yuxarı yaşda olan şəxslər təşkil edir.

2020-ci ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 18,9 faiz artaraq 1215,5 manat təşkil edib.

## Erməniləri gözləyən siyasi böhran hələ irəlidədir...

Hə, indi də başlayıblar Nikolun arxasınca döşəməyə... Deyirlər ki, guya o təbliğat vaxtı seçicilərinə yalan vədlər verib. Belə ki, bəzilərinə dolayı yollarla rüşvət ötürüb, kənddə yaşayanlara faizsiz borclar boyun olub, polis zabitlərinə yüksək maaş verdirəcəyini deyib, döyüşdən qaçan fərarilərə amnistiya təminatı verib... Sən demə, bu sadalananlar hələ hamısı da deyilmiş. Demə, bütün bunlardan əlavə, Paşinyan siyasi taktikalardan da yaxşı yararlana bilib. O, hətta məqsədinə nail olmaq üçün inzibati resurslardan da maksimum dərəcədə istifadə edə bilib. ...Siz də deyirdiniz ki, Nikol bacarıqsızın, işəyaramayanın biridir. Amma gördüz, qələbə qazandı...

İndi də başlamısınız ki, Nikol bizi, yəni "Hayastan"la "Mənim qürurum var" ittifaqlarını başqaları ilə səhv salmasın: "ölərik, amma Nikolla



kompromisə getmərik, yeni Paşinyanla heç bir işə qol qoymarıq". Əslində, sizə burada bir "malades" demək olardı, amma sizin bundan sonra hansı yol seçəcəyinizi düşünüb saxladım. Əvvəla xatırladım ki, sizin ölkənin Konstitusiya Məhkəməsinə müraciət etməyiniz üçün heç bir əsasınız yoxdur. Çünki qeydə alınan seçki pozuntularının sayında "qələbə sizinlədir". Yəni siz seçki pozuntularınızla irəlidə gedirsiniz.

Amma bir şeyi də sizə xatırladım ki, bu yaxınlarda elə sizləri çəkiclə məğlub etməklə hədələyən Nikolun indi sağlam qüvvələrin birləşdirilməsi kimi "səmimi təklifini" qəbul etmək istəmirsiniz. Hətta Nikola verilən səslərin əksəriyyətinin Ermənistanın əyalətlərində yığıldığını, İrəvanda onu istəyənlərin az olduğunu və ya olmadığını əsas kimi götürərək nəyəsə ümid edirsiniz.

Təbii ki, hələlik Ermənistandakı siyasi böhranın həllindən danışmaq mümkün deyil. Belə ki, seçki nəticələrinin doğuracağı böhran erməni böhranının yalnız ilk mərhələsidir. Ermənistanın siyasi həyatında yaşanacaq müxtəlif cür narahatlıqlar isə hələ irəlidədir.

***Ağasəf Babayev***

# İşğaldan azad olunmuş ərazilərimizdə inkişafın yeni təntənəsi

**Bəli, bu gün Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu belə olacaq.**

İunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın işğalından azad olunan Qarabağın ürəyi olan Şuşada Azərbaycan üçün çox önəmli bir tarixdə - Milli Qurtuluş Günündə, Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsini prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan imzalamaqla işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir.

İşğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinə Qarabağı cənnətə çevirəcək. Möhtərəm Prezidentimiz də çıxışlarında dönə-dönə bildirib: “Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam”.

Bəli, Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 4 yanvar tarixli Fərmanı ilə Qarabağ Dirçəliş Fondunu yaradılıb. Artıq bir sıra dost ölkələr işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində iştirak arzusunda olduqlarını bildiriblər. Dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə “İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında” Fərmanı bu istiqamətdə atılan daha bir mühüm addım oldu. Yüksək və müasir standartlarla həyata keçirilən bərpa-quruculuq işlərinə, ilk növbədə, Şuşadan başlanıldı. Qısa zamanda Şuşa həm regionun, həm də bütün dünyanın mədəniyyət mərkəzlərindən birinə çevriləcək. Dövlətimizin başçısının vurğuladığı kimi, biz Şuşanı dirçəldəcəyik.



### Prezident İlham Əliyev: “Otuz ilə yaxın davam edən işğala Azərbaycan qardaş Türkiyənin dəstəyi ilə son qoydu”

Prezident İlham Əliyev iyunun 15-də Şuşada mətbuata bəyanatında Türkiyənin müharibə dövründə Azərbaycana dəstəyindən danışarkən bildirib ki, “İkinci Qarabağ müharibəsi tarixdə qaldı, 44 günlük müharibə nəticəsində Ermənistan ordusu tam məhv edildi. Ermənistan diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur olub Şuşa alınandan sonra kapitulyasiya aktına imza atdı və bizim digər bölgələrimiz bir atəş açmadan bizə qaytarıldı. Otuz ilə yaxın davam edən işğala son qoyuldu. Azərbaycan buna qardaş Türkiyənin dəstəyi ilə son qoydu: “Bu, bir daha onu göstərir ki, iradə, əzmkarlıq, güc və ədalət olan yerdə hər şey əldə etmək mümkündür. Əlbəttə, Türkiyə kimi müttəfiqi olan Azərbaycan İkinci Qarabağ savaşında bundan ruhlanaraq tarixi missiyanı yerinə yetirdi, ədaləti bərpa etdi, ərazi bütövlüyünü bərpa etdi”.

Prezident qeyd edib ki, indi yeni dövr başlayır. “Əziz qardaşımla bu gün Füzuli şəhərində görüşərək, onu orada qarşılayaraq Füzulinin dağılmış mənzərəsini göstərdim, Füzuli şəhəri yoxdur. Siz də oradan keçmisiniz, görmüsünüz, bir dənə də salamat bina yoxdur. Mənfur düşmən bütün binalarımızı yerləbir edib. Ağdam da belə vəziyyətdədir. Bizim tarixi abidələrimizi dağıdıb, söküb və talan ediblər. Şuşa şəhəri görün nə gündədir. Şuşa tarixi şəhərdir və 28 il işğal dövründə burada bir dənə də bina tikilməmişdir. Mən əziz qardaşıma bax, bu binanı göstərdim, Şuşa valiliyinin binası, mənim rəhmətlik atamın dövründə tikilmişdir. Şuşadakı binalar həm onun dövründə, həm də Pənahəli xanın, İbrahimxəlil xanın dövründə tikilmişdir. Mənfur düşmən bir daşı daş üstə qoymamışdır. İndi Şuşanın dağılmış yerlərini siz görürsünüz, hələ biz bura əl gəzdirmişik. İlk dəfə mən bu ilin əvvəlində buraya gələndə şəhər tamamilə dağılmış vəziyyətdə idi”.

### Prezident İlham Əliyev: “Şuşa bəyannaməsinin adı müttəfiqlik haqqında bəyannamədir”

“Bu gün həyatımızın tarixində əlamətdar, tarixi bir gündür. Bu gün biz qardaş ölkənin əziz cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanı Qarabağ torpağında, Şuşada salamlayırıq. Fürsətdən istifadə edərək, Azərbaycan xalqı adından əziz qardaşımı Şuşada, Qarabağda salamlamaq istəyirəm. Əziz qardaşım Azərbaycanda dəfələrlə olub. Ancaq ilk dəfə Qarabağ torpağında, Şuşada biz bir yerdəyik. Bu səfərin tarixi əhəmiyyəti var”. Bu sözləri Prezident İlham Əliyev iyunun 15-də Şuşada Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla keçirdiyi birgə mətbuat konfransında deyib.

Azərbaycan Prezidenti bildirib ki, Şuşa bəyannaməsi əlaqələrimizi ən yüksək zirvəyə qaldırır: “Bəyannamənin adı müttəfiqlik haqqında bəyannamədir. Bu ad özü özlüyündə hər şeyi göstərir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır. Dəfələrlə çıxışlarımda demişəm ki, Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Bizi birləşdirən bir çox amillər var ki, bu birliyi təmin edir. İlk növbədə tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız və xalqlarımızın qardaşlığı”.




Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq. Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir.

### Azərbaycan Prezidenti: “Müharibənin ilk saatlarından Türkiyə Prezidenti bildirdi ki, Azərbaycan tək deyil”

“Bu gün qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaq. Bu səfərin tarixi əhəmiyyəti bundan sonra uzun illər ərzində dillərdə olacaqdır. Şuşa keçən il noyabrın 8-də işğaldan azad edildi. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan sıldırım qayaları görərkən, görür ki, bu alınmaz qala sayılan şəhəri azad etmək böyük qəhrəmanlıq, peşəkarlı, şücaət tələb edirdi”.

Bunu Prezident İlham Əliyev Şuşada mətbuata bəyanatında bildirib və deyib ki, bugün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqlarının ölkələrimizin birliyini nümayiş etdirir: “İkinci Qarabağ müharibəsi başlanan ilk gündən, ilk saatlardan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, qəti və açıq dəstək ifadə edib. Müharibənin ilk saatlarından Türkiyə Prezidenti bildirdi ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, mədaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı”.

Dövlətimizin başçısı deyib: “Bu gün qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaq. Bu səfərin tarixi əhəmiyyəti bundan sonra uzun illər ərzində dillərdə olacaqdır. Şuşa keçən il noyabrın 8-də işğaldan azad edildi. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan sıldırım qayaları görərkən, görür ki, bu alınmaz qala sayılan şəhəri azad etmək böyük qəhrəmanlıq, peşəkarlı, şücaət tələb edirdi”.

### Prezident İlham Əliyev: “Şuşa Bəyannaməsində Zəngəzur dəhlizi ilə bağlı çox açıq ifadələr əksini tapıb”

“Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra imzalanan müttəfiqlik haqqında birgə Bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir”. Dövlətimizin başçısı deyib: “Bəyannamədə bir çox önəmli məsələlər əksini tapıb: beynəlxalq müstəvidə birgə əməkdaşlığımız, siyasi münasibətlər, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti. Demək olar ki, bütün sahələr əhatə olunub. Enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilir”.

# İşğaldan azad olunmuş ərazilərimizdə inkişafın yeni təntənəsi

Prezident İlham Əliyev qeyd edib ki, Bəyannamədəki hər bir məsələnin çox mühüm əhəmiyyət daşıyır: “Mən onların arasında iki məsələni xüsusilə qeyd etmək istərdim. Birincisi, bu Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bu, tarixi nailiyyətdir. Biz bir daha göstəririk ki, bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik. Necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq. Önəmli məsələlər arasında ikincisi nəqliyyat məsələsidir. Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyə ilə Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, biz əməli, praktiki işlərlə bu dəhlizi yaradırıq. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır”.







### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: **“Qarabağ sahiblərinə qovuşdu və erməni zülmündən, işğalından azad edildi”**

“Bu gün təbii ki, fərqli bir həyəcanın, hisslərin içindəyik. Allaha şükür olsun ki, daha əvvəl verdiyimiz sözümüzü bu gün yerinə yetiririk. Qırx dörd günlük məlum müharibənin nəticəsində Qarabağ, çox şükürlər olsun ki, sahiblərinə qovuşdu və erməni zülmündən, erməni işğalından azad edildi”. Bu sözləri Şuşa Bəyannaməsinin imzalanmasından sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə mətbuata birgə bəyanatlarla çıxış edərkən deyib.

Türkiyənin dövlət başçısı deyib: “Hazırda arxa fonda görünən bina, əslində, erməni zülmünün təəssüf ki, bu şah əsərləri nə hala gətirdiyinin bir ifadəsidir. Qardaşım da fon olaraq mətbuat konfransı üçün olduqca anlamlı bir yer seçib. Bir tərəfdə valilik binası, o biri tərəfdə də təəssüf ki, ermənilərin, necə deyərlər, yerlə-yeksan etdikləri bir bina. 15 İyun - Azərbaycanın Milli Qurtuluş Günü münasibətilə ümummilli lider Heydər Əliyevi rəhmətlə anırıq, ruhu şad olsun deyirik.

Bildiyiniz kimi, qəhrəman Azərbaycan Ordusunun Qarabağ Zəfərinin sevincini qardaşım cənab Əliyevlə keçən il dekabrın 10-da Bakıda birlikdə bölüşmüşdük. O gün tamamilə başqa bir coşqu, başqa bir həyəcan var idi. Altı ay sonra qədim Şuşa şəhərində onunla bir yerdə olmaqdan böyük məmnunluq duyuram. Verdiyimiz söz, çox şükür, yerinə yetirildi”.

### Türkiyə Prezidenti: **“Qarabağ əvvəlki ehtişamına və öz kimliyinə qovuşacaq”**

“Azərbaycan xalqının Qarabağ Zəfərini bir daha təbrik edirəm. Tarixdə bir çox incəsənət xadimi yetişdirmiş Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan bölgəmizə və dünyaya verəcəyimiz mesajların çox önəmli olduğuna inanıram. Qardaşım Əliyevin uzaqgörən liderliyi və Müzəffər Ali Baş Komandanlığı ilə azadlığına qovuşan Qarabağın yenidən dirçəldilməsi işlərini yaxından izləyirik. Şuşaya gələrkən bu işləri gördük və siz də gördünüz. Fasiləsiz iş görülür, infrastruktur sahəsində intensiv iş aparılır. Bir tərəfdən yollar salınır, bir tərəfdən enerji stansiyaları açılır, bir tərəfdən yüksəkgərginlikli xətlər çəkilir. Bütün bunlarla yanaşı, susuz olan bu bölgə suya qovuşur. Bu işlər hazırda fasiləsiz davam edir. İnşallah, ən qısa vaxtda bölgə hava limanına, hava limanlarına da qovuşacaq. Təkbətək görüşdə də əziz qardaşım bunları mənə xüsusilə danışdı. Hava limanına, hava limanlarına da qovuşduqdan sonra buralara gəliş-gediş daha da artacaq və inanıram ki, bu bölgə o dövrdə turizmdə də ciddi bir sıçrayışı yaşayacaq”.

Türkiyənin dövlət başçısı deyib: “Təbii ki, Qarabağ əvvəlki ehtişamına və öz kimliyinə qovuşacaq. Buna heç şübhəmiz yoxdur. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Xocavənd kimi Qarabağın qədim yaşayış məntəqələrinin yenidən inkişaf etdiyi günləri yaxın vaxtlarda hamımız birlikdə görəcəyik”

### Prezident Rəcəb Tayyib Ərdoğan: **“Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik”**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada mətbuata bəyanatında bildjirib ki, Qarabağ əvvəlki ehtişamına və öz kimliyinə qovuşacaq. Buna heç şübhəmiz yoxdur. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Xocavənd kimi Qarabağın qədim yaşayış məntəqələrinin yenidən inkişaf etdiyi günləri yaxın vaxtlarda hamımız birlikdə görəcəyik: “Türkiyə olaraq, azadlıq mübarizəsində olduğu kimi, bərpa işlərində də qardaşlarımıza hər cür dəstəyi veririk, verməkdə də davam edəcəyik. Ən qısa müddətdə evlərinə qayıtmalarını gözlədiyimiz azərbaycanlı qardaşlarımız üçün də hər cür səy göstərəcəyik. Təbii ki, bu məsələdə hörmətli qardaşımın xüsusi fəaliyyəti var. Yetər ki, buranın əsl sahibləri evlərinə, məskənlərinə qayıtsın. Onlara istər maliyyə köməyi, istərsə də iş imkanı ilə bağlı hər cür dəstəyi verməklə azərbaycanlı qardaşlarımızın öz evlərinə, öz məkanlarına geri qayıtmaları buraları ciddi mənada zənginləşdirəcək”.

Rəcəb Tayyib Ərdoğan deyib ki, bir tərəfdən dağıntıların fəsadlarını aradan qaldırarkən, digər tərəfdən də Qarabağın və Azərbaycan torpaqlarının bir daha belə bir fəlakət yaşamaması üçün lazımi tədbirləri birlikdə görəcəyik: “Bizim də bu sahədə, inşallah, Mənzil İnşaat İdarəmizlə birlikdə burada bütün bölgədə planlaşdırdığımız addımlar var. Mənzil İnşaat İdarəmizlə buradakı aidiyyəti qurumla birlikdə çalışaraq bu addımları atacağıq”.

### Türkiyə Prezidenti bölgədə təsiri olan hər kəsi Azərbaycanın Zəfərini qəbul etməyə və gələcəyə baxmağa çağırıb

Bölgədə təsiri olan hər kəsi həqiqətləri görməyə, Azərbaycan xalqının Zəfərini qəbul etməyə və gələcəyə baxmağa dəvət edirik. Atəşkəs razılaşmasından sonra artıq bölgədə bütün tərəflər üçün yeni əməkdaşlıq imkanları yaranıb. Azərbaycanlı qardaşlarımın bu məsələdə son dərəcə istəkli olmalarının ən yaxın şahidiyik. Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 15-də Şuşada mətbuata bəyanatında söyləyib ki, bölgədəki yeni reallığa fayda vermək istəyən hər kəsin əməkdaşlığı təşviq etməsi əsas şərtdir: “Bölgədəki yeni reallığa fayda vermək istəyən hər kəsin nifrət və təhrik siyasətindən əl çəkərək sülh və əməkdaşlığı təşviq etməyə istiqamətlənməsi əsas şərtdir. Belə bir mühit formalaşanda Ermənistan ilə münasibətlərin normallaşması üçün biz də üzərimizə düşəni edəcəyimizi hər fürsətdə deyirik. Bu ümidverici proses Azərbaycan ilə Ermənistanın imzaladıqları atəşkəs razılaşmasını əhatəli və uzaqgörən bir sülh müqaviləsi ilə tamamladıqları halda çox sağlam şəkildə davam edəcəyinə inanırıq”.

### Türkiyə Prezidenti: **“Yeni bir Qarabağ ərsəyə gətirəcəyik”**

“Biz işğaldan azad olunan əraziləri yenidən inşa edərək yeni bir Qarabağ ərsəyə gətirəcəyik”, deyən türkiyə Prezidentinin sözlərinə görə, Qarabağı və işğal altındakı Azərbaycan torpaqlarını 30 il məhv edənləri görməyənlər, Azərbaycanın azadlıq mücadiləsini əngəlləmək üçün səfərbər olanlar indi gəlib Füzulini, Qarabağı görsünlər: “Hər şey ortadadır. Dünən oraların halını gördük. Azərbaycanlılar 30 il öncə Qarabağdan çıxmaq məcburiyyətində qaldıqda heç bir evi yandırmadılar, çünki insan öz evini yandırmaz, ancaq ermənilər oralardan gedəndə hər şeyi yandırdılar, çünki oralar onların vətəni deyildi”.

Beləliklə, Azərbaycan və Türkiyə bu gün dünya miqyasında nadir əməkdaşlıq və müttəfiqlik nümunəsi göstərir. Bu reallıqlar iki dövlətin bundan sonra da dostluq və qardaşlıq prinsiplərinə əsaslanan çoxşaxəli münasibətlərinin uğurla inkişaf edəcəyini deməyə əsas verir. Heç şübhəsiz, Azərbaycan və Türkiyə birgə addımlayaraq yeni zəfərlər qazanacaq, böyük tarixi nailiyyərlərə imza atacaq, Azərbaycanla Türkiyənin dövlət qurumları arasında münasibətlərimiz daha da dərinləşəcək, işğaldan azad olunmuş ərazilərdə aparılacaq bərpa-quruculuq işlərində daha isti münasibət göstərəcək.

**RƏFİQƏ KAMALQIZI**

# Dünyanın tolerantlıq mərkəzi olan Azərbaycan

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından 20 il ötür*




Ölkəmizdə dözümlülük ənənələrinin qorunub saxlanılmasına töhfələrini verən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından artıq 20 il ötür. Dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixində yaradılıb. Azərbaycan Prezidentinin Sərəncamı ilə Komitəsinin yaradılmasının 20 illiyi münasibətilə və dövlət-din münasibətlərinin tənzimlənməsində səmərəli fəaliyyətinə görə bir neçə əməkdaşları "Tərəqqi", "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif olunublar. Qeyd edək ki, müstəqil Azərbaycanın Banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi dövlət-din münasibətləri sisteminin əsas prinsipləri, bu sahəni tənzimləyən qanunvericilik bazası uğurla formalaşdırıldı. Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri olan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması oldu. Dövlət Komitənin yaranması barədə fərmanla Komitənin qarşısına Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatına alınması, zərərli təriqətlərin fəaliyyətinə son qoyulması və digər vəzifələr qoyuldu. Beynəlxalq aləmdə, xüsusilə regionda və ölkədə gedən proseslər, eləcə də dini durumda baş verən hadisələr Ümummilli Liderin bu qərarının nə qədər müdrik addım olduğunu bir daha təsdiqlədi.

### PREZİDENT CƏNAB İLHAM ƏLİYEVİN MƏQSƏDYÖNLÜ FƏALİYYƏTİ NƏTİCƏSİNDƏ MULTİKULTURAL VƏ TOLERANT MÜHİT FORMALAŞIB

Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün sahələrə olduğu kimi, bu sahəyə də ayırdığı diqqət nəticəsində milli-mənəvi dəyərlərimizin yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində regionun lider dövlətinə çevrilib. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb. Dövlət siyasətini həyata keçirən Dövlət Komitəsi 20 illik fəaliyyətində dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dini dözümsüzlük meyillərinin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Ölkədə dini durum, bu sahədə mövcud problemlər, zərərli təriqətlərin təbliği, dini icmaları narahat edən məsələlər dərindən öyrənilir və zaman keçdikcə onların həllində müsbət nəticələr əldə olunur. Dini maariflənlendirmə işini Komitənin təsis etdiyi "Cəmiyyət və Din" qəzeti, "Dövlət və Din" ictimai fikir toplusu, DQİDK əməkdaşlarının müəllifi olduğu nəşrlər, eləcə də televiziya proqramları vasitəsilə də aparan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında dini radikalizmin, xurafatın törətdiyi fəsadları və təhlükələri ictimaiyyətə daha aydın şəkildə çatdırmaq, həmçinin, bu sahədə maarifləndirmə işinin effektivliyini artırmaq məqsədilə "Fitnə", "Şəhadət", "Vəhdət qanımızdadır" və digər sənədli filmlər çəkilərək geniş ictimaiyyətə təqdim edilib. Komitənin aidiyyəti qurumlarla birgə təşkilatçılığı ilə Azərbaycanın tolerantlıq təcrübəsi və multikultural dəyərlərinin, eləcə də zəngin mənəvi-əxlaqi irsinin təbliği istiqamətində "Ekstremizmə qarşı mübarizədə din və etiqad azadlığının təmin olunması: Azərbaycandakı çətinliklər və mövcud təcrübə", "Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması", "Din və demokratiya: nəzəriyyə və tarixi təcrübə", "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər", "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası", "Rusiya-Azərbaycan: sülh təhlükəsizlik və əməkdaşlıq naminə konfessiyalararası dialoq və İslam həmrəyliyi", "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" və s. mövzularında beynəlxalq konfranslar, simpoziumlar, panellər keçirib.

### AZƏRBAYCAN ÖZ DİNİ MÜXTƏLİFLİYİ İLƏ FƏXR EDİR

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Bu gün ölkəmizdə 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyət göstərir.

Azərbaycan öz dini müxtəlifliyi ilə fəxr edir. Çünki Azərbaycan dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olub və xristian icması əsrlər boyunca Azərbaycan tarixinin formalaşmasında iştirak edib. Təsadüfi deyil ki, xristian və müsəlman icmaları ilə yanaşı yaşayan təqribən 30 minlik yəhudi icması isə Azərbaycanda iki min ildən bəri yaşamaqdadır. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. 2003-cü ilin sentyabrından Azərbaycanda ilk yəhudi məktəbi fəaliyyət göstərir. 2010-cu ilin oktyabrında isə Bakının Xətai rayonunda yerləşən üçmərtəbəli təhsil kompleksi ən müasir tələblər səviyyəsində istifadəyə verilmişdir. 450 yerlik mərkəzin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyəti əsaslarının tədris olunmasıdır. Azərbaycanda yaşayan yəhudilər hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq günahlarının bağışlanması üçün dualar edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunması və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Azərbaycan İlahiyyat İnstitutu yaradılıb.

### ÖLKƏMİZDƏ MULTİKULTURALİZM ƏNƏNƏLƏRİ QORUNUB SAXLANILIR, İNKİŞAF ETDİRİLİR VƏ TƏBLİĞ OLUNUR

Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Multikulturalizm Mərkəzi yarandığı vaxtdan etibarən Prezidentin müəyyənləşdirdiyi Azərbaycanı, ölkəmizin multikultural dəyərlərini, tolerantlıq ənənələrini dünyada tanıtmaq hədəfini qurumun aparıcı istiqaməti elan edib. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqındaAzərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib.

***Zümrüd BAYRAMOVA***

# "Dünya gülüşü və bolqar yumoru" beynəlxalq simpoziumda məruzə

**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Bolqarıstan Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun keçirdiyi "Dünya gülüşü və bolqar yumoru" mövzusunda onlayn beynəlxalq simpoziumda elmi məruzə ilə çıxış edib.**




Beynəlxalq aləmdə dünya gülüşü mədəniyyətinin əsas mərkəzlərindən biri kimi qəbul edilən Qabrovo yumoruna sahib olan Bolqarıstanda təşkil edilən simpozium həm də bolqar satirasının görkəmli yaradıcıları hesab edilən Dimitri Podvrzaçov və Vixren Çernokojevin xatirəsinə həsr edilmişdir. Beynəlxalq elmi konfransda bolqar alimləri ilə yanaşı, Türkiyə tədqiqatçılarının da elmi məruzələri dinlənilmişdir. Beynəlxalq elmi konfransda satira nəzəriyyəsinin aktual problemləri və milli ədəbiyyatlarda gülüş mədəniyyəti məsələlərini geniş müzakirə olunmuş, Qabrovo yumoru haqqında ayrıca məruzə dinləyicilərə təqdim edilmişdir.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin beynəlxalq simpoziumda "Satira nəzəriyyəsinə yenidən baxış: Azərbaycanın Şəki gülüşü və Bolqarıstanın Qabrovo yumorunun oxşar və fərqli xüsusiyyətləri" mövzusunda məruzəsi dinlənilib müzakirə olunmuşdur. Məruzədə satiranın ədəbi növ əmələ gətirmək xarakterinə malik olmasına, satira janrlarının spesifikası məsələlərinə xüsusi yer ayrılmışdır. Akademik İsa Həbibbəylinin məruzəsində eyni zamanda Azərbaycanın Şəki gülüşü ilə Bolqarıstanın Qabrovo yumorunun oxşar və fərqli xüsusiyyətləri ilk dəfə olaraq nəzəri cəhətdən təhlil olunmuş və bədii nümunələrlə izah edilmişdir.

Akademik İsa Həbibbəyli bundan əvvəl satira nəzəriyyəsi məsələləri haqqında Tatarıstan Elmlər Akademiyasının keçirdiyi beynəlxalq elmi konfransda məruzə ilə çıxış etmişdir.

# Kənd, yoxsa broyler toyuğu yeməli?



## Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun SİA-ya müsahibəsi:

***- Riskli qidalar hansılardır? Misal üçün 10 qida götürdükdə bunlardan riskli qidalar kimi hansıları sadalamaq olar?***

- Xüsusən yay ayları istilik reaksiyanın getməyi üçün bir katalizatordur. Belə vəziyyətdə yay aylarında riskli qidalardan birinci növbədə balıqlar, göbələklər dayanır. Buraya xüsusilə də, hisə verilmiş balıqlar daxildir. Bu cür qidalar hər an insanın həyatına son qoya bilər. Ümumiyyətlə, bütün zamanlarda məsləhət görülməyən, xüsusilə uşaqlara çipsilər, paloçkalar, fast food qidaları və s. riskli qidalar qrupuna daxildir. Əlbəttə ən təzə hazırlanmış qida belə elə bir vəziyyətdə saxlanıla bilər ki, bu çox kiçik bir zamanda yararlılıq müddətində riskli qidaya çevrilərək insan həyatına son qoya bilər. Ona görə də qidanın təzə istehsal olunması şərt deyil. Onun saxlanma şəraiti mühüm amillərdən biridir.

***- Bu riskli qidaların saxlanma şəraiti necə olmalıdır ki, insana zərəri olmasın?***

- Hər bir qidanın saxlanılma şəraiti üçün standartlar mövcuddur. Həmin qidaların etiketinə saxlanma şəraiti yazılıb. O yazılan etiketə istehlakçılar əməl etməlidir. Bişirildəndən sonra necə saxlanılması isə malın etiketində yazılmasa da, lakin birmənalı şəkildə soyuq vəziyyətdə saxlanmalıdır. Amma soyuğun özü də qidanı yenə də təhlükəsiz etmir. Bu dəfə ortalığa saxlanma müddəti çıxır. Soyuducunun qapısı açılır, örtülür və s. Bunlar hamısı qidaya təsir edən amillərdir və bişiriləndən sonra da tez yeyilməlidir.

***- İlin bu aylarında insanlar qarpız, yemişə üstünlük verir. May, iyun ayında artıq bütün mağazalarda qarpıza, yemişə rast gəlmək olur. Ümumiyyətlə bunların tərkibi nədən ibarətdir? İnsanlar qarpızdan, yemişdən hansı qaydada istifadə etməlidir?***

- Ümumiyyətlə, bilməliyik ki, bütün dünyanın hər yerində istehlakçıların aldadılması baş verir. Doğma, gözəl Azərbaycanımızdan da bu yan keçməyib. İstehsalçıların arxasında elm, texnologiya və pul dayanır. İstehlakçı isə təkdir. İndi qarpız, yemiş sezonudur. Qarpız istehsalçıları çox ağır zəhmətlə başa gətirdikləri əhəmiyyətli və bütün yer üzündə olan insanların keçə bilməyəcəyi son dərəcə qeyri-adi bostan bitkisini böyütmək, bazar üçün yararlı, gec xarab olan və dözümlü etmək üçün mümkün olan müasir yolların hamısından istifadə edirlər. Azərbaycanda bitən qarpız adətən beş, altı kilodan artıq olmur. Qarpızlara bıçaq vuran kimi partlayır. Belə qarpızları kəsəndə o al-qırmızı olur, çəhrayı rəngdə olmur. Baxmayaraq ki, çəhrayı qarpızlar gübrələndiyi üçün daha şirin olur. Böyük qarpızlar şirin, tumu az olur, kəsəndə içərisindən ağ zoğlar görünür. Bütün bunlar istehlakçı üçün cəlbedicidir. Gübrəsiz qarpız kiçik olur, qabığının qalınlığı yarım santimetrdən artıq olmur, rəngi al qırmızı, tumların sayı çox olur. Çox yaxşı olar ki, qədim Azərbaycan sortlarından olsun. Yəni, içərisində böyük tumları olan qarpızlar bu sortdur. Demək olar ki, bazarda 98 faiz xırda tumlu qarpızlardır. Hətta tumsuz qarpız da mövcuddur. Tumsuz qarpızlar istehlakçının diqqətini daha çox cəlb edir. İstehlakçını aldatmaq, çaşdırmaq işləri gedir. Azad bazar iqtisadiyyatıdır, nə etmək olar? Azərbaycan da, dünya bazarına inteqrasiya olmuş bir bazardır. Dünyanın hər yerindən məhdudiyyətsiz mallar gətirilərək satılır. Lakin, istehlakçı maarifli olmalıdır. Ümumiyyətlə, özü saxlaya bilmirsə, alırsa, çox az istehlak etsin.

***- Keyfiyyətli qara çörəklər necə olmalıdır?***

- Etiraf edək ki, ildən-ilə bu sektor yaxşılaşaraq sağlamlaşır. Misal üçün illər öncə bizə şikayət gəlmişdi ki, İngiltərə vətəndaşı dietik çörək alıb, kəsəndə görüb ki, bıçaq nəyəsə toxunur. Bizim ofisə gəlib, ərizə yazıb ki, bunu təhlil edək. Çörəyin içərisindən böyük dəmir çıxıb. Bu təxminən 8-10 il öncə olub. Kənar cisimlərin çörəyin içərisinə düşməsi çox nadir hallarda olur. Artıq vəziyyət xeyli düzəlib və Qida Təhlükəsizliyi Agentliyi yaranıb ki, o da malların təhlükəsizliyinə nəzarət edir. Lakin, bununla belə istehlakçıların qara çörək haqqında fikirləri daim təzadlıdır. İstehlakçılar düşünürlər ki, çörəklərin tərkibinə qara nə isə vururlar. Hazırda bu vəziyyət demək olar ki, yoxdur. Qara, dietik çörəklər xüsusi unla, müəyyən qədər də buğda unu qarışdırılaraq çovdar unundan bişirilir. Mağazalarda diabetik şəkər tozları satılır. Guya bu diabetlərə zərər etmir?! Səhiyyə Nazirliyinin rəsmi cavabı var ki, bu diabet xəstələrinə zərərdir.

***- Bu yaxınlarda ümumiyyətlə hansı qanunsuzluqların şahidi olmusunuz? Mağazaya daxil olarkən bir ekspert kimi oradan bir nümunə götürmüsünüz?***



- Mən Qida Təhlükəsizliyi Agentliyində İctimai Şuranın sədriyəm. Gələn şikayətlər orada müzakirə olunur. Şikayətlər arasında İvanovka dükanlarında satılan yalançı nehrə yağları olub. 20-yə qədər saxta İvanovka dükanları var ki, onların İvanovka kəndi ilə heç bir əlaqəsi yoxdur. Bu nehrə yağlarının əksəriyyəti, demək olar ki, 90 faizi heç də nehrə yağı deyil və ayrı - ayrı yağların qarışığından əmələ gəlib. İvanovka və yaxud İsmayıllı xaması satılır. Biz ekspertizaya da vermişik və məlum olub ki, bu heç də xama deyil. Yəni, müəyyən bitki yağlarının qarışığından hazırlanıb. Qablaşdırılmış mallarda ciddi problemin biri mal etiketi ilə əhalinin aldadılması məsələsidir. Üstünə yazılır natural yağ. Natural yağ dedikdə isə, istehlakçının gözünün qabağına kərə yağı gəlir.

***- Yay mövsümündə insanların çoxu açıq havada kəsilən ətlərə üstünlük verirlər. Bu barədə nə deyərdiniz?***

- Birmənalı şəkildə insanları çağırıram ki, açıq havada, harda gəldi kəsilən heyvan ətlərinə üstünlük verməsinlər. Həmin ətlər baytarlıq nəzarətindən keçmir. Ölkədə ayrıca kəsim qaydaları təsdiq olunub. Əhali kəsim qaydalarına uyğun olmuş yerlərdən ət almalıdır.

***- Açıq havada kəsilən ətləri insanlar alıb, dərhal bişirib yedikdə orqanizmdə hansı fəsadlar baş verə bilər?***

- Azərbaycan istehlakçıları cəld zəhərlənmə anlayışına malikdirlər. Tədrici zəhərlənmə anlayışı yoxdur. Qeyd etdiyim kimi, heyvanlara böyük doza ilə antibiotiklər vurulur. Gərək onun üstündən bir ay keçsin, axırıncı baytar yoxlasın görsün necədi, qızdırması varmı, antibiotiklər sovrulubmu? Ondan sonra bu heyvan kəsilsin. Lakin, küçədə kəsilən heyvanlarda heç bir tədqiqat getmir və insanların bədənində antibiotik qalıqları yığılır,sonra qızdırması olanda, xəstələnəndə, ona antibiotik vuranda, artıq onun bədənində heyvan antibiotiki olduğu üçün insana təsir etmir. Yəni, dərmanların da ona xeyri olmur.

***- Mağazalarda müxtəlif adda toyuqlara rast gəlirik. Ümumiyyətlə keyfiyyətli toyuğu necə seçmək lazımdır?***

- Kənd toyuğu anlayışı insanların beyninə oturub. Əhali bilməlidir ki, kənd toyuğu nə ilə olsa qidalanır. Azərbaycanın ən ucqar kəndində belə toyuqlara dərman verilərək iynələr vurulur. Ümumiyyətlə kənd toyuğu adı altında istehlakçıların aldadılmasına son qoyulmalıdır. Marketlərdə kənd toyuğu adı altında salafana bükülmüş, ayaqları da kəsilməmiş toyuqlar satılır. Əksər hallarda bu toyuqlar elə təsadüfi fermer təsərrüfatlarından gətirilmiş toyuqlar olur. Əhali onu təzə toyuq kimi alır. Kənd toyuğu ilə broyler toyuğunun ciddi fərqlərindən biri broyler toyuğunun sümüyünün yumşaq olmasında, tez bişməsində, tez yetişkənli olmasındadır. Əlbəttə, broyler toyuqları müəyyən məhdudiyyətlə istehlak olunmalıdır. Onlar mütləq qaynadılmalıdır. Qazanın qapağı açıq qoyulmalıdır ki, ondan buxarlar çıxsın. Çox bişirilməli və ciddi nəzarət altında olmalıdır. Lakin nə etmək olar, azad iqtisadiyyatdır. Dükanlarda şükürlər olsun ki, böyük seçim var. Ona görə də istehlakçılar birinci malların buraxılma tarixinə və son yararlılıq müddətinə, hansı toyuqların yararlılıq müddəti kiçikdirsə, ona üstünlük versinlər.

***- Çoxları bəlkə də bilmir, marketə daxil olur və toyuq almaq istəyir, hansı toyuğa üstünlük verməlidir?***

- Ancaq mən marka adı deməyəm. Çünki mən heç vaxt yaxşı şey barədə danışmıram. Sadəcə olaraq deyirəm ki, hansının yararlılıq tarixi kiçikdirsə, ona üstünlük versinlər. Deməli istehsalçı onu kimyalaşdırmayıb. Sonra qabığı əzilməməlidir, yəni, o dondurulub, donu açılıb, təzədən dondurulmamalıdır. Qablaşdırılmada əziklik varsa onun bu o deməkdir ki, artıq temperatura məruz qalıb və yaxud dükana girəndə görürlər ki, pis qoxu gəlir. Bunun səbəbi, dükan sahibi gecələr elektrikə qənaət etmək üçün soyuducunu şəbəkədən ayırıb. Artıq bu mallar çirklənib və riskli olub. Onların saxlanma şəraitinə fikir versinlər. Əgər görürlər ki, toyuğun donu açılıbsa, belə toyuğu almaq lazım deyil.

***- Ümumiyyətlə, ət məhsulları ev şəraitində necə saxlanılmalıdır? Soyuducuya qoyduqda hansı temperaturda olmalıdır?***

- Bəli çiy əti də, bişmiş xörəyi də müəyyən temperaturda, müəyyən vaxt miqdarında saxlamaq olar. Dükandan alınmış əti 2 aya qədər də soyuducuda donmuş vəziyyətdə saxlamaq olar, heç bir problem olmaz. Bişmiş əti iki, üç gündən artıq 4 dərəcəlik temperaturdan artıq saxlamaq məsləhət görülmür. Həmçinin toyuq əti, balıqlar da bura aiddir. İnsan dərhal zəhərlənmir, tədricən insanın bədənində lazımsız maddələr toplanır və xəstəliklər əmələ gəlir.

***Ayşən Vəli***



# Fiziki şəxslərin əmanətləri: Manat 6 ildən sonra üstünlüyü ələ alsa da...

Azərbaycanda fiziki şəxslərin əmanətlərinin strukturunda manatla depozitlər 2015-ci ilin fevralından bəri ilk dəfə üstün paya sahib olub. Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatında deyilir.

Hələ 4 ayın yekununda fiziki şəxslərin banklardakı əmanətlərinin həcmi 8 milyard 352,9 milyon manat təşkil edirdi ki, bunun da 48,7 faizi xarici valyutada olub. Üstünlüyün təşkil etdiyi milli valyutada olan əmanətlərin 43,5 faizini tələbli əmanətlər təşkil edib. Xarici valyuta olan əmanətlərin 38,7 faizi tələblidir. Beləliklə, fiziki şəxslərə aid əmanətlərin 41,2 faizi tələblidir, yəni əmanətçi istədiyi vaxt vəsaitini bankdan geri götürə bilər.

Götürəndə, elə əmanətlərin 75 faizi qısamüddətlidir (6 ayadək). Qısamüddətli kreditlərin 53 faizi manatladır. Uzunmüddətli kreditlərə gəlincə, onların 53,8 faizi xarici valyutadadır. Manatla uzunmüddətli əmanət sahibləri əsasən rezidentlərdir (95,6 faiz). Elə xarici valyuta üzrə uzunmüddətli əmanətlər də demək olar ki, rezidentlərə aiddir (97,6 faiz).

Mərkəzi Bankın məlumatına görə, may ayının birinə fiziki şəxslərin əmanətləri ötən ilin sonu ilə müqayisədə 2,1 faiz artıb. Hesabat dövründə bu qrupdan olan şəxslərin manatla müddətli əmanətləri 13,2 faiz artıb, tələbli əmanətləri isə 1,3 faiz azalıb. Xarici valyutada isə tələbli əmanətlər 5,9 faiz artıb, müddətli əmanətlər 6,4 faiz azalıb.

Fiziki şəxslərin əmanətlərinin 96,7 faizi rezident şəxslərə aiddir. Onların əmanətlərinin 51,6 faizi manatladır. Qeyri-rezidentlər isə əmanətlərinidaha çox xarici valyutada saxlamağa üstünlük verirlər. Bu qrupdan olan əmanətlərin 57,5 faizi xarici valyutadadır.

Manatla əmanətlərin xarici valyutadakı əmanətləri üstələməsi ilk növbədə milli valyutanın məzənnəsinin sabitliyi ilə bağlıdır. Hələ 2015-ci ilin fevral ayında baş verən devalvasiyadan sonra əhali əmanətini daha çox xarici valyutada yerləşdirməyə başlamışdı. Lakin ötən müddətdə bu prosesdə müəyyən səngimə gedirdi. Məsələ burasındadır ki, sonrakı dövrdə manatın məzənnəsinin sabitliyi milli valyutada əmanət yerləşdirməyə tədricən maraq yaradıb. Xüsusilə də pandemiyanın iqtisadiyyat təsirinə, o cümlədən 2020-ci ilin sonuna ölkənin tədiyə balansında 1 milyard 987,2 milyon dollar kəsirin (2019-cu ildə tədiyə balansının ümumi saldosu müsbət 5 milyard 143 milyon dollar təşkil etmişdi) yaranmasına baxmayaraq manatın məzənnəsinin sabit saxlanılması milli valyutaya inamı artırıb.

Ən əsası isə devalvasiyadan sonra xarici valyutada kreditlərə tələbin azalması əmanət faizlərinin də kəskin azalmasına səbəb olub. Bu da xarici valyutada əmanət yerləşdirilməsinə marağı azaldıb. Cari ilin gedişatı da onu deyir ki, xarici valyutada ümumi əmanət qoyuşunun daha çox azalmasının qarşısı tələbli əmanətlərdəki artım hesabına alınıb. Cari ilin mayın əvvəlinə manatla əmanətlərin orta faiz dərəcəsi 5,16 olubsa, xarici valyutada bu 4,2 dəfə az- 1,23 faiz təşkil edib. Xarici valyutada əmanətlərin orta faiz dərəcəsi, həmçinin illik müqayisədə 0,16 faiz-bənd azalıb.

Bununla belə, əmanətlərin dördə üç hissəsinin qısamüddətli olması, eyni zamanda, uzunmüddətli əmanətlərin 54 faizə yaxın hissəsinin xarici valyutada yerləşdirilməsi əhalinin hələ də ehtiyatlı davranış nümayiş etdirməsindən xəbər verir.

***Ceyhun Piriyev***

# "Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə birliyini, qardaşlığını bütün dünyaya bir daha nümayiş etdirdi"

**İyunun 15-də Qars müqaviləsindən 100 il sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidenti İlham Əliyev arasında işğaldan azad olunan Şuşada tarixi bəyannamənin imzalanması iki dost və qardaş ölkə arasında birliyin, qardaşlığın bütün dünyaya bir daha nümayişi idi.**



*RAMİZ ŞABANOV,*
*YAP Tərtər rayon təşkilatının sədri*

Həmçinin, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətlərinin bununla yüksək zirvəyə və yeni mərhələyə qədəm qoyduğunu bir daha göstərdi. Bu tarixi sənəd, həmçinin iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq.

44 günlük Vətən müharibəsi zamanı qardaş Türkiyə Azərbaycanın yanında oldu, Qarabağ məsələsini öz problemi hesab etdi. 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması bir daha sübut etdi ki, Azərbaycan-Türkiyə dostluğu əbədidir, sarsılmazdır. Azərbaycan və Türkiyə tarix boyu həmişə bir-birinin yanında olublar və indi də belədir. Türkiyə Respublikası həm münaqişə, həm də Vətən müharibəsi dövründə Azərbaycanın mövqeyini yüksək səviyyədə dəstəklədi və siyasi və mənəvi köməyini əsirgəmədi. Qars müqaviləsi üzrə Türkiyə üzərinə hansı məsuliyyəti götürübsə, Şuşa Bəyannaməsində hər iki dövlət - Azərbaycan və Türkiyə öz üzərinə məsuliyyət götürdü. Azərbaycan da öz növbəsində hər zaman qardaş Türkiyənin yanında olduğunu bildirib və bundan sonra da olacaq. Şuşa Bəyannaməsinin imzalanması həm də dünyaya bir mesajdır. İki ölkənin başçısı Şuşadan mesaj verdilər ki, Qarabağ Azərbaycanındır və onun təhlükəsizliyi üçün hər hansı manea olarsa, mütləq cavabı veriləcək. Və iki qardaş ölkənin Prezidentləri çıxışları ilə Şuşadan mesaj verməklə bu bölgənin artıq sülhün, təhlükəsizliyin, qarşılıqlı əlaqələrin, əməkdaşlığın məkanına çevriləcəyini dünyaya nümayiş etdirdilər. Çünki zamanın çoxəsrlik sınağından çıxan Azərbaycan və Türkiyə xalqlarının qardaşlığı, dostluğu hər hansı iqtisadi, siyasi maraqlar üzərində qurulmayıb. Bu, eyni dindən, soykökündən gələn, qardaşlıqdan doğan münasibətdir və bu dostluğa heç bir qüvvə mane ola bilməz və bu gün bu münasibətlər hazırda özünün ən uca zirvəsinə yüksəlib. Qardaş ölkənin prezidenti R.T.Ərdoğanın "Türkiyə hər zaman Azərbaycanın yanındadır!" mesajı ölkəmiz üçün çox böyük və həlledici əhəmiyyəti oldu. "Şanlı Qələbəmizə həsr olunmuş "Zəfər paradı"nda da iki ölkə başçılarının yanaşı dayanması və qələbəni birlikdə qeyd etməsi bu birliyin sarsılmazlığının, gücünün daha bir təzahürü idi. Bu nöqteyi-nəzərdən Ərdoğanın Qələbədən sonra ölkəmizə budəfəki səfəri qardaşlıq, birlik mesajı olmaqla bərabər, həm də geosiyasi, tarixi baxımdan mühüm əhəmiyyət daşıyır.

Həmçinin, bu səfər müharibə dövründə və sonra da iki ölkənin daim bir-birinə dəstək olduğu kimi, Qarabağda quruculuq dövründə də birlikdə olacağını dünyaya nümayiş etdirir. Həmçinin, qısa vaxtda Şuşada Baş konsulluğunu açması isə Türkiyənin bu bölgədə mövqeyinin və gücünün möhkəmlənməsi kimi dəyərləndirilməlidir. Bu, həm də Azərbaycanın güclənməsi deməkdir. Çünki dövlət başçılarının da bəyan etdiyi kimi, Azərbaycanın gücü Türkiyənin, Türkiyənin gücü isə Azərbaycanın gücüdür.

Həmçinin Bəyannamədə enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilir. Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bəyannamədə o cümlədən, Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsində Türkiyə ilə Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi həm də türk dünyasının birləşməsi, regionun təhlükəsizliyi və sosial-iqtisadi inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Bir sözlə, Türkiyə və Azərbaycan arasında imzalanan Şuşa Bəyannaməsi yalnız Azərbaycanla Türkiyəyə deyil, digər türk dövlətlərinə, eləcə də dünyaya əhəmiyyətli dəstək verəcək, "Bir millət, iki dövlət" - şüarı tarix və dünya var olduqca öz aktuallığını qoruyub saxlayacaq.

# "Görəsən, nə ayıb işi var idi ki, intihar edib?"



"Təəssüflər olsun ki, budəfəki məsələ də intiharlarla bağlı olacaq. Biz bu məsələ haqqında nə qədər çox danışsaq, bir o qədər də maariflənmiş olarıq və bəlkə də, hər hansısa bir intiharın qarşısının alınmasında vasitəçilik edərik". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Onun sözlərinə görə, intiharların emosional və informativ kimi bir sıra növləri var: "İntiharlar əsasən insanın özünəqapanması nəticəsində inkişaf edir. Cəmiyyət intihar edən insan haqqında düşünür ki, "görəsən bunun nə ayıb işi var idi ki, intihar edib?" Biz bioloji varlıq olduğumuz qədər, həm də sosial varlığıq. Bəzən bioloji varlıq olaraq hər hansı bir məsələ bizi incitməyən bir məqamda, sosial varlıq olduğumuz üçün bizə mənfi təsir edə bilər".

"İntihar məsələsində valideyn faktoru da çox önəmlidir. Çox gözəl olardı ki, hər bir valideyn öz övladı ilə dost olsun. Bəzən baxırıq ki, övladı ilə dost olan valideynin övladının da hər hansısa bir problemi olduqda övlad yenə də onu anası və ya atası ilə bölüşə bilmir. Burada artıq, o sual ortaya çıxır ki, "Axı, valideyn övladına bu qədər can yandırır, ona bu qədər sevgi verir. Yəni, bu qədər sevginin içərisində nə baş verib ki, onun övladı intihar edir?". Demək ki, burada valideynin həddindən artıq məhəbbət verməsi və ya verməməsi övladımızda müəyyən düşüncələrə səbəb olur. Bu adətən çox uşaqlı ailələrdə baş verir və uşaqlardan biri düşünür ki, valideyni onu digərləri ilə müqayisədə o qədər də çox sevmir. Beləliklə, həyatdan bezdiyini düşünüb intihar edir. Yəni, düşünür ki, onun yaşayıb yaşamadığının valideyni üçün heç bir əhəmiyyəti yoxdur".

Psixoloq sözlərinə belə davam edib: "Hər insan fərqlidir və hər insanın da öz fərqli intihar psixologiyası var. İntihara sövq edilməmişdən öncə biz ətrafımızdakı insanları yaxından tanımalıyıq və onlarla düzgün strategiya qurmalıyıq ki, o strategiyanın içərisində istədiyimiz nəticəni alaq. Yəni, bir insanın həyatının sona çatması cəmiyyət tərəfindən əzilməməlidir. Biz psixoloqlar diqqətli olaraq insanlara kömək etsək, bunun qarşısını ala bilərik".

"İntiharlarda yalnız ailə faktoru deyil, sosial, ətraf, qohum-əqrəba, dost-tanış da mühüm rol oynayır. Eyni zamanda mən əsgər intiharlarını da vurğulamaq istəyirəm. Nədir səbəb? Əsgəri buna nə vadar edir? Bəzən görürük ki, əsgərliyə gedən oğlanın hərbi düşüncəsi və hərbi psixologiyası yoxdur, yəni bilmir. Belə insanlarda "mən" eqosu həddindən artıq yüksək olur. Belə halda hərbi disiplinə dözə bilmir və ən asan yol olaraq intiharı seçir. Lakin, biz öncədən övladlarımızı düzgün maarifləndirsək, "bura kişilik məktəbidir", "sən burada özünə yaxşı dostlar qazana bilərsən" kimi fikirləri aşılasaq daha yaxşı olar".

*Ayşən Vəli*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Ermənistanda seçkilər bitdi: nəticələrə gələk...

Bir çoxlarını, əsasən də Ermənistanın xaricində yaşayanları bu ölkədə keçirilmiş növbədənkənar parlament və baş nazirlik seçkilərinin nəticələri təəccübləndirdi. Lakin bu seçkilərdə Paşinyanın qalibiyyəti mənim üçün də sürpriz olmadı. Belə ki, bu adam müharibədə uduzdu, kapitulyasiya aktını imzaladı, ancaq hakimiyyətini əlində saxlamağı bacardı! Hətta kapitulyasiya aktını imzaladığı andan etibarən minlərlə revanşçı insanların küçələrə tökülüşərək günlər boyu "Nikol xain!" bağırmaları belə, onun baş nazirlik kürsüsünü tərpədə, yerindən oynada bilmədi.

Onda belə bir sual yaranır ki, Paşinyan həqiqətənmi "dərin Ermənistanın" təhkim etdiyi namizədlərindən idi ki, çoxsaylı siyasi oyunbazlıqlardan yorulmuş, tükənmiş, nəticədə ölkələrindən didərgin düşərək demək olar ki, dünyanın bir çox nöqtələrində çörək dalınca qaçan, normal həyat axtaran ermənilərin dilindən danışır? Məsələn, daha çox Rusiyada məskunlaşan ermənilərin heç də hamısı zəngin deyil və onlar ya taksi sürür, ya da bazarlarda ticarətlə məşğuldurlar...

## Paşinyana dəstək verənlər roboserjlərdən niyə imtina etdilər?

Yeri gəlmişkən, bu dəfə də bizlər bütöv bir Ermənistanın seçki kampaniyalarının şahidləri olmadıq - ortada bir-birini hər an didməyə, parçalamağa hazır olan iki klan var idi, biri İrəvan, digəri isə Qarabağ klanı. Və bu gün (elə əvvəllər də) Ermənistanda Qarabağ erməniləri heç də normal qəbul olunmurlar, onlara ikinci sort ermənilər kimi yanaşırlar. Ancaq gəlin görək, ikinci sort adlandırılan həmin ermənilər Ermənistanın başına hansı oyunları açmadı ki? Təbii ki, bunun da səbəbləri var, özü də çoxdur.

Misal üçün, hələ birinci Qarabağ müharibəsinin nəticələrinə görə ilk qazananlar, talançılıq edənlər, varidat yığanlar məhz qarabağlı ermənilərin "səhra komandirləri" oldular. Onlar nəinki Azərbaycan torpaqlarını işğal etdilər, həm də əllərinə düşən girəvələrini fövtə verməyərək bütün Ermənistanı işğalları altına aldılar. Yəni birinci Qarabağ müharibəsinin nəticəsi yalnız onlara sərf edirdi, təbii ki, bir də erməni diasporuna. Axı onların övladları Qarabağda başqalarının maraqlarına görə öldürülmürdülər. Fəqət hər şeyə rəğmən, "artsax" adına kifayət qədər vəsaitlər toplanırdı, özü də hər il! Və...

## Paşinyana səs verən ermənilərin düşünə bildikləri, lakin səsləndirə bilmədikləri şey nədir?

Və sadə erməni xalqı görəndə ki, qarabağlılardan ibarət canilər, qatillər, qaniçənlər, quldurlar klanının mənsubları onların ölkələrini hansı vəziyyətə salıblar, bax onda ayılaraq dərk etdilər ki, məhz Paşinyana səs vermək lazımdır. Çünki adekvat ermənilər qonşu ölkələrlə normal ayaşamaq, əlaqələr qurmaq istəyindədirlər. Məhz adekvat ermənilər müharibənin nəticələrini anladılar və onu qəbul etdilər. Onlar uzun illər yatdıqları "fil yuxusundan" ayıldılar və başa düşdülər ki, mənasız, məntiqsiz münaqişə bilavasitə erməni dövlətçiliyinin sonunu sürətlə, dinamik şəkildə yaxınlaşdırır, məhvə doğru sürükləyir.

Hətta belə deyək, mən Paşinyanı dəstəkləyən ermənilərin roboserjlərin (Robert Koçaryanla Serj Sarqasyanın vəhdət abbreviaturası) yenidən iqtidarı ələ keçirmələrinə qarşı bu addıma getmələri iddialarını dəstəkləmirəm. Ümumiyyətlə!

Həmin ermənilər ona görə Nikol Paşinyana səs verdilər ki, bu şəxs onların yeni arzularını, həyata yeni baxış prizmalarını, düşüncələrini həyata keçirəcək adamdır. Özü də həmin düşüncələri indinin özündə Ermənistanda səsləndirmək mümkün deyil, hətta onu səsləndirənlər linçedilmə təhlükəsi ilə də qarşılaşa bilərlər. Fəqət, seçkilərin nəticələrinə görə həmin bu gizli düşüncələri yüzminlərlə ermənilər bölüşürlər. Bu düşüncə isə çox sadə və bəsitdir: Qarabağ Azərbaycandır!

# DSX nərə cinsli balığı qanunsuz ovlayan dəstəni saxladı

Sərhəd Xidməti (DSX) tərəfindən dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilməkdədir. DSX-dən SİA-ya bildirilib ki, cari ilin iyun ayının 15-də Neftçala şəhər sakini Babayev Elmar Əlisahib oğluna məxsus "bayda" tipli üzmə vasitəsinin Xızı rayonunun Giləzi qəsəbəsi istiqamətindən dənizə çıxaraq qanunsuz balıq ovu ilə məşğul olması barədə məlumat daxil olub.





Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi tərəfindən müvafiq tədbirlər görülmüş, qeyd olunan istiqamətə sərhəd gözətçi gəmiləri göndərilmiş, texniki müşahidə avadanlıqları və radarlar vasitəsilə dənizə çıxan üzmə vasitələrinin hərəkəti nəzarətə götürülüb.

Dövlət sərhədinin gücləndirilmiş üsulla mühafizəsi təşkil olunaraq ərazidə əlavə sərhəd heyəti yerləşdirilmiş, qanunsuz olaraq dənizə çıxmış üzmə vasitəsinin aşkar edilərək saxlanılması istiqamətində zəruri əməliyyat-axtarış tədbirləri həyata keçirilmiş, nəticədə qeyd olunan qayığın dövlət sərhədini pozaraq Xəzər dənizinin Azərbaycan Respublikasının ərazi sularından 192 mil (355 km) məsafədə Rusiya Federasiyası və 211 mil (390 km) məsafədə Qazaxıstan Respublikasının sektorunda qanunsuz nərə cinsli balıqların ovu ilə məşğul olması müəyyənləşdirilib. Əldə edilmiş məlumatlara əsasən, Sahil Mühafizəsinin əməliyyat-axtarış qrupu tərəfindən Xızı rayonunun Giləzi qəsəbəsi yaxınlığında quruda və dənizdə xidmət təşkil edilib.

İyun ayının 19-da saat 21:00 radələrində həmin ərazidə aşkar edilən üzmə vasitəsi 3 nəfər heyət üzvü ilə birlikdə saxlanılıb, qayığa baxış zamanı içərisində ovu qadağan olunmuş ümumi çəkisi 620 kq olan 106 ədəd nərə cinsli balıq aşkar edilib. Saxlanılmış şəxslərin Astara rayon sakini 1976-cı il təvəllüdlü Mirzəyev Bəhruz Abutalıb oğlu, Neftçala rayon sakinləri 1963-cü il təvəllüdlü Əhmədov Raqib Novruz oğlu və 1985-ci il təvəllüdlü Bəxtiyarov Xəyal Fərhad oğlu olmaları müəyyənləşdirilib.

Əməliyyat-axtarış tədbirləri zamanı qayığı sahildə qarşılamağa gəlmiş "Opel Astra" markalı 99-SN-577 və "Zil" markalı 01-BH-619 dövlət nömrə nişanlı avtomobillərdə üzmə vasitəsinin sahibi Babayev Elmar Əlisahib oğlu və digər 3 nəfər - Abşeron rayon sakinləri 1998-ci il təvəllüdlü Mürşüdov Qismət İltifaq oğlu, 1997-ci il təvəllüdlü Müştaqov Fərzalı Növcavan oğlu və 1984-cü il təvəllüdlü İmaniyev Hövsət Pərvaz oğlu da saxlanılıblar. Fakt ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun əməkdaşları ilə birlikdə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# "Yazıqlar olsun, ayrı nə deyim?"

Böyük sairimiz Bəxtiyar Vahabzadə vaxtilə Misirin Prezidenti Ənvər Sadata və İsrailin Baş Naziri Beginə Nobel Sülh mükafatının verilməsinə hiddətini bildirən şeir yazmışdı. Orda bir misra yadıma düşdü. "Fitvasını verənin ağlı Ağ evdən gəlir!" Əli Kərimliyə də, milli olmayan "Milli Şura"ya da fitva Paşinyana fitva verənlərdir". Bunu SİA-ya açıqlamasında "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov deyib.

Onun sözlərinə görə, demokratiya adı altında millətləri, cəmiyyətləri xaosa sürükləyib, sonra özlərinə tabe etdirmək istəyən qüvvələr orda paşikləri necə küyləyib ortaya atıblarsa, eyni üsulla da bizdəki paşikəbənzərləri eləcə küyləyirlər ki, Azərbaycanı da qarışdıra bilsinlər: "Ancaq, necə deyərlər, bizim cəmiyyət bunu "yeməz"! Biz başı daşdan-daşa dəfələrlə deymiş xalqıq. Basımıza dəyən o daşlar bizləri elə bərkidib ki, Soros kimilərin oyunları bizə keçməyəcək, necə ki, iyirmi yeddi ildir keçmir. Sadəcə bu həqiqəti özünü siyasətçi adlandıran bizim buqələmunların anlaya bilməmələri təəccüblüdür. Otuz il müxalifik edib, bir addım da irəli getməyən siyasətçidən də bundan artıq heç gözləməyinə dəyməz. Bir siyasətçi ki, xalqının düşmənini etalon kimi təqdim edirsə, onun siyasi düşüncəsinin hansı səviyyədə olduğunu anlamaq kifayətdir. Bu adamlar hələ də qanmırlar və qanmaq da istəmirlər ki, belə gedişlər onların onsuz da olmayan nüfuzlarını daha da mənfiyə endirir və yalnız xalqın özlərinə nifrətini artırmış olurlar. Yazıqlar olsun, ayrı nə deyim?"

***Gülyana***

# Sürüşə görə belə Robertə dəyər verilmədi...



Beləliklə, Ermənistandakı seçkilərlə bağlı MDB-nin müşahidə missiyasının rəhbəri İlhom Nematov ermənilərin keçirdikləri mətbuat konfransında ölkədəki "parlament seçkilərinin Konstitusiya və Seçki Məcəlləsinə uyğun keçirildiyini" bəyan edib. Yəni, parlament seçkilərinin qalibi Nikol Paşinyndır. Qeyd edək ki, hazırda Nikolun qazandığı mandatla yeni hökumət qura biləcəyi də istisna edilmir.

Amma maraqlıda olsa, Ermənistandakı son seçkilərlə bağlı ermənilər müxtəlif fikirlər səslendirməkdədirlər. Məsələn, ermənilərin "Aysor.am" saytında yer alan bir məlumatda Ermənistan Konstitusiya Məhkəməsinin keçmiş aparat rəhbəri olmuş Edqar Qazaryan ölkəsində hakimiyyətin heç vaxt seçki yolu ilə dəyişməmdiyini bildirir.

Məncə, "müəmmalı" açıqlamadır. Əslində buna "demokratik bir ölkənin demokratik seçkilərinə" xələl gətirə biləcək açıqlama adı da vermək olar. Amma Edqar Qazaryan vaxtilə bu işlərin içində olan biri kimi, ona "irad" bildirmək niyyətində də deyilik.

Qeyd edək ki, seçkinin nəticələri ilə bağlı mövqe bildirən "Mənim addımım" fraksiyasından olan keçmiş millət vəkili Arsen Julfalakyan Paşinyanın yenidən ölkəyə rəhbərlik edəcəyinə təəssüfləndiyini bildirir. Maraqlıdır ki, vaxtilə Paşinyanın "silahdaşı" olan Julfalakyan sual edir, görən, xalq Nikoldan imtina etmək üçün ondan daha hansı pislikləri görməlidir. Məgər, müharibədəki məğlubiyyət, "tarixi ərazilər"in itirilməsi minlərlə ölü və yaralı, çökən bir ordu, bərbad iqtisadiyyat, bərbad təhsil sistemi, böyük maddi ziyan və daha nələr, nələr cəmiyyətdə Nikola qarşı nifrət yaymağa kifayət etmədimi?

Bildirək ki, hazırda ermənilər arasında Arsen Julfalakyanın fikirlərinə şərik olanlar da az deyil. Məsələn, Paşinyanın 680 mindən artıq səsi necə qazandığına şübhə bildirən "Zartonk" partiyasının nümayəndəsi Ara Zohrabyan ermənilərin yalançı və məğlub birinə səs verməkdə böyük səhvə yol verdiklərini bildirir. Onun fikrincə, bu seçkilərdə milli dəyərlər sistemi, milli ləyaqət və vətənin təhlükəsizliyi ermənilərin qəlbində yer tapa bilmədi(?). Bəlkə də, amma, məncə, olan şeydən danışmaq lazımdır..

Qeyd edək ki, Nikol Paşinyanın yenidən səlahiyyətlərini icra edəcəyi ehtimalından pəjmürdə olanlardan biri də erməni hərbçisi Senor Asratyandır. Deyirlər, hərbçilərin sabiqi olmur, amma mənə elə gəlir ki, bu sözləri Senor haqqında demək olar. Nə isə... Asratyanın fikrincə, ermənilər yenə məğlub olub, amma bu dəfə xarici və ya daxili düşmənə yox, bu dəfə onlar özü özlərinə məğlub olublar.

O da maraqlıdır ki, nə R. Koçaryandan, nə də S. Sarkisyandan hələ ki, bir səs-səmir yoxdur. Belə görünür ki, onlar xalqdan aldıqları "sarsıdıcı zərbənin" avazımasını gözləyirlər. Əslində, bu gözlənilən idi, yəni seçkilərdə aşağı nəticə göstərməleri ermənilərin onlara münasibətinin sübutudur.

Amma, bunlar hamısı öz yerində... mənə belə gəlir ki, hazırda Robert Koçaryana ən çox yer eləyən onun seçiciləri qarşısına çıxarıb oxutdurduğu gəlini Sürüşə görə belə ona verilməyən dəyərdir...

***Ağasəf Babayev***

# Asratyan: "Erməni xalqı yenə məğlub oldu, amma bu dəfə özü-özünə uduzdu"



Erməni xalqı yenə məğlub oldu, ancaq bu dəfə xarici və ya daxili düşmənə deyil, özü özünə məğlub oldu. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə qondarma Qarabağ Müdafiə Ordusunun keçmiş mətbuat katibi Senor Asratyan öz Facebook səhifəsində yazıb. "Bu dəfə də erməni xalqı məğlub oldu və uduzdu. Ancaq bu dəfə erməni xalqı nə xarici, nə də daxili bir düşmənə yox, elə özünə məğlub oldu. Amma erməni xalqı buna, xalqın fikrinə məhəl qoymayacaq "seçilmiş" hökumətin nəhayət ölkəni məhv edəcəyi zaman əmin olacaq. Ancaq bu zaman lap gec olacaq", deyə Asratyan öz sosial şəbəkə hesabında qeyd edib.

Xatırladaq ki, dünən, 20 iyun tarixində Ermənistanda növbədənkənar parlament seçkisi keçririlib. Seçki ilə bağlı, seçicilərə rüşvət təklif edilməsi, təşfiqat aparılması, təhdid və təsirlər, hətta atışma və insident kimi çoxsaylı qanun pozuntusu halları müşahidə edilib. Bununla belə Nikol Paşinyanın seçkidə qalib gəldiyi deyilir. Onun qələbəsi ilə barışmayanlar olduqca çoxdur. Təsadüfi deyil ki, Senor Asratyan kimi, ermənilərin bir çoxları bu seçkini erməni xalqının məğlubiyyəti hesab edir və görünür bir qədər öncə Ermənistanın küçə və meydanlarında Paşinyanın məğlubiyyətini proqnozlaşdıranlar bu vıziyyətə görə hələ şok içərisindədirlər. Amma hər bir halda vətəndaşların böyük qisminin Paşinyana səs verdiyi, onu seçdiyi bəyan edilirsə, deməli, erməni cəmiyyəti bununla barışmaq məcburiyyətindədir.

***İnam Hacıyev***

# "Nar" "Breyn Rinq" yarışının çempionu oldu



"Breyn Rinq" yarışının 17-ci mövsümündə 16 komanda arasında gedən gərgin mübarizə nəticəsində "Nar" komandası mövsümün çempionu olub. Final oyunda mobil operatorun dəstək olduğu "Nar" komandası "Kapital Bank" komandası ilə mübarizədə qalib gəlib.

Qeyd edək ki, builki mövsümündə respublikanın 6 bölgəsi və 6 ali məktəbini təmsil edən 16 seçilmiş komanda mübarizə aparıb. Televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə hər il olduğu kimi bu il də "Nar"ın "Twitter" səhifəsində yarış keçirilib və televiziya tamaşaçıları "Nar"dan hədiyyə qazanıblar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsinin abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 90%-ni əhatə edir və 8760-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Ermənilər niyə Paşinyanı seçdi?









**İyun ayının əvvəllərində Paşinyan Fransaya səfərə gedəndə "Qarabağ klanı"nın rəhbəri, yenidən hakimiyyətə gəlmək arzusu ilə seçkilərə qatılan "Ermənistan" blokunun lideri Robert Koçaryan təxminən belə bir fikir səsləndirmişdi: "Fransa prezidenti Emmanuel Makron Paşinyanı payızda qəbul etməli idi. Amma tələsdi". Əslində bu tələskənliyin səbəbini Paşinyandan başqa çox az adam bilir. Onun da öz çıxarları var.**

Bu gün artıq Ermənistanda kimin kim olduğu, kimin satqın, kimin lider olduğu yerbəyer oldu. Erməni xalqı Qarabağ müharibəsində uduzmağına baxmayaraq Paşinyana yenidən etimad göstərdi, onu özünə hökumət başçısı seçdi. Niyə? Bu sualın cavabı əslində çətin deyil, ermənilər sözün həqiqi mənasında boyunlarından asılmış bu ağır "Qarabağ" daşını daşımaqdan imtina etdilər. Əslən Qarabağdan olan Koçaryan və Sarkisyan Azərbaycana qarşı başlatdıqları separatçı əməllərini Ermənistan prezidenti seçilməklə daha geniş arenada davam etdirmişdilər. 1998-ci ildə Levon Ter-Petrosyanın hakimiyyətinə terrorçuların əli ilə son qoyan Robert Koçaryan öz oyununu Serj Sarkisyanla birgə düz 20 il - 2018-ci ilə qədər uzada bildi. 20 illik ağır daş erməniləri çox ağır duruma saldı.





Beynəlxalq qanunlara, qərarlara söykənən Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti sayəsində Ermənistan liderləri işğal etdikləri Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu müstəqil ölkə kimi legitimləşdirə, dünyanın subyektinə çevirə bilmədilər. Xalqların öz müqəddəratını təyin etmə hüququnun ölkənin ərazi bütövlüyündən üstün olduğunu heç bir qanuni çərçivəyə sığdırmaq mümkün olmadı. Ayrı-ayrı ermənipərəst təşkilatlar müxtəlif manipulyasiyalar etməyə çalışsalar da buna hüquqi don geyindirə bilmədilər.

Bütün dünya ölkələri, hətta Azərbaycana qarşı daim ikili standartlar mövqeyindən yanaşan, Ermənistanın xaltasını tutan ölkələr belə beynəlxalq təşkilatların, BMT kimi mötəbər qurumun rəsmən tanıdığı Azərbaycan ərazilərindən kiməsə pay verilməsi iddiasına düşməyə cəsarət etmədilər. Çünki, Ermənistandan fərqli olaraq dünyanın əksər ölkələri xalqların, fərqli mədəniyyətlərin, fərqli dinlərin birgə yaşam yeridir. "Hay"ların ölkəsinin 99 faizi ermənilərdən, 1 faizi isə Rusiya hərbçilərindən ibarətdir. Başqa xalqlar ya qovulub, ya da özləri qaçıb oradan.

Məsələn, Fransa, Rusiya, yaxud ABŞ Azərbaycana "Qarabağda ermənilər kompakt (toplum) şəklində yaşadıqları üçün onlara müstəqillik verin" tələbini edə bilməz. Bu addımı atmazdan əvvəl həmin ölkələr ən azından öz ərazilərində toplum halında yaşayan ermənilərə müstəqillik verməlidirlər və bundan sonra yenə də bizdən nəyi isə tələb edə bilməzlər. Bir sözlə Azərbaycanın istəyi və razılığı olmadan ərazisindən bir qarış da kimsəyə verilə bilməz. Bunun üçün son 30 ilə və xalqımızın öz rəhbəri ilə birgə apardığı qətiyyətli mübarizəyə diqqət etmək kifayətdir.

Bəli, Ermənistanda xalq 44 günlük məğlubiyyət damğasını üstündə gəzdirən Paşinyana yenidən etimad göstərdi. Milyonlarla dolların, humanitar yardımların axdığı "Qarabağ klanı"ndan ermənilərin canı qurtuldu, həm də birdəfəlik. Əslində Koçaryan və Sarkisyana verilən səslər "ermənilər separatizmi nə qədər dəstəkləyir", sualına tutarlı cavab oldu. Erməni lobbisinin və millətçilərin canfəşanlığına, göndərdiyi maddi vəsaitlərə baxmayaraq erməni seçicilər səslərini boyunduruqdan qurtulmağa, ağır daşdan azad olmaq naminə verdi.

Bundan başqa, Ermənistanın və ümumiyyətlə, dünya ermənilərinin uduzmasını şərtləndirən ən böyük amil, səbəb Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, düşünülmüş siyasəti, peşəkarlığı oldu. Bir əmrlə silaha sarılan xalqımız Ordumuzun yanında durdu. Məhz Ali Baş Komandanın rəhbərliyi altında 30 il torpaqlarımızı işğal altında saxlayan, qanunsuz istismar edən, Qarabağdakı mədəni irsimizi yer üzündən silən, bizi daim aşağılamağa çalışan və buna rəğmən dünyadan ədalət tələb edən Ermənistan və onun separatçı qurumu diz çökdürüldü. Əslində Ermənistanda keçirilmiş növbədənkənar parlament seçkilərinin nəticələri Azərbaycanın və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin qələbəsidir.

Parlament seçkilərində Koçaryan-Sarkisyan cütlüyünün məğlubiyyəti göstərdi ki, erməni xalqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi mənzərəni, müharibənin nəticələrini qəbul edir, revanşistlərə yenidən meydan vermək niyyətində deyil. Bir daha aydın oldu ki, Qarabağsız "Qarabağ klanı" artıq Ermənistanda heç kəsə lazım deyil.

Əslində, Qarabağdakı erməni separatçılarının keçmiş rəhbəri, Ermənistanın keçmiş prezidenti, hələ də törətdiyi cinayətlərə görə məhkəmə qarşısına çıxarılan Robert Koçaryanın dünən keçirilən seçkilərə qoşulmasının bir səbəbi var, o da deputat toxunulmazlığı qazanmaq və nəticədə canını müttəhimlər kürsüsündən qurtarmaqdır. Onun xalqı xilas etmək, "Hadrudu, Şuşanı qaytarmaq" kimi dərdi yoxdur. O, bu seçkilərdə bütün resurslarını ortaya qoydu ki, özünü xilas etsin və bunu da bacardı.

Koçaryan-Sarkisyan cütlüyünün 44 günlük müharibədən sonra apardıqları təbliğatın əsasında Paşinyanın 2018-ci ildən bəri yürütdüyü siyasətin uğursuz olması, ordunu dağıtması, ermənilərin mübarizə ruhunu öldürməsi kimi absurd fikirlər dururdu. Siyasi arenada bu təbliğatın nəyə söykəndiyini və hansı nəticələrə hesablandığını hər kəs bilirdi. Bu cütlük müharibədə Ermənistanın kapitulyasiyasını bir nəfərin - baş nazirin üstünə yükləməklə özlərinin talançılıq əməllərini ört-basdır etməyi düşünürdülər. Amma Koçaryan-Sarkisyan duetinin əsl sifətini məhz Azərbaycan Prezidenti ifşa etdi.

İlham Əliyevin "Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, biz sizi məğlub etmişik, sizin ordunuzu məhv etmişik" sitatını xatırlatmaq tam yerinə düşər. Prezident İlham Əliyev sözün həqiqi mənasında, R.Koçaryan və S.Sarkisyanı təkcə hərb meydanında deyil, həm də siyasi meydanda məhv etdi. Bəli məğlub ordunu onlar qurmuşdular, təlim keçmişdilər, xaricdən yardımlar alıb separatçılardan qabaq onu mənimsəyənlər, milyonlar qazananlar da onlar idi. Ermənilər də onların bu əməlini görürdü, lakin cəzalarını zamanın axarına buraxırdı. Erməni xalqından dəfələrlə Azərbaycanın gəlib haqqı olanı almasını, Qarabağı separatçılardan təmizləməyin vaxtının çatdığını, "Qarabağ klanı"nın hakimiyyətinə, soyğunçuluğuna son qoyulacağı günü gözlədikləri fikirlərini az eşitməmişdik. Seçkilərin nəticələri göstərdi ki, erməni xalqı revanşist meyllərə yox deyir, o məğlubiyyətdən sonra demoralizə olunub və artıq müharibədən bezib. 2016-cı ilin aprelində Azərbaycan ordusuna məğlubiyyət Sarkisyan rejiminin sonu oldu, 2020-ci il müharibəsində məğlubiyyət isə revanşistlərin hakimiyyətə qayıdış yolunu birdəfəlik kəsdi. Və buradan, "ermənilər niyə Paşinyanı seçdi" sualına cavab tapmış olarıq.

*Vəli VƏLİYEV*

# SOS: Müasir uşaqları gözləyən təhlükə

**Analar öz körpələrinə süd verməməklə, onların və özlərinin sağlamlığını təhlükə altına qoyur**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

***Körpə olanda anamızın böyük həvəslə bizə verdiyi südün xeyrini bütün ömrümüz boyu görmüşük. Ana südü bizi təhlükəli xəstəliklərdən qoruyub, immunitetimizi güclü edib, əqli və ruhi inkişafımıza müsbət təsir edib. Bir gün gəldi biz də ana olduq, lakin heç də hamımız övladımıza öz anamızın bizə davrandığı kimi davranmadıq. Bəzilərimiz onu əmizdirmək yerinə ağzına bir qaşıq horra, ya da şübhəli tərkibli süni uşaq yeməyi töküb işhatla yeyəcəyini gözlədik... körpəmizin yeni açılmış gözlərindəki narazılığı görmədən...***

### Ana südü ən böyük möcüzədir

Yazımıza bu möcüzə haqda qısa arayışla başlayaq. Ana südü həmişə ən uyğun temperaturdadır. Ana südünü vermək üçün əlavə pul xərcləməyə də ehtiyac yoxdur, ən sərfəli qidadır.

Ana südü ilə qidalanan körpələrdə allergik xəstəliklər çox az rast gəlinir. Ananın doğuşdan sonra övladına verdiyi ilk südə el arasında "ağız südü" deyirlər ki, bu süd körpənin ilk peyvəndi hesab olunur. Hər bir qaşıq ana südü övladınızı bir xəstəlikdən qoruyur. Ana südü ilə qidalanan uşaqlarda mədə-bağırsaq və tənəffüs yolları xəstəliyi çox nadir hallarda olur.

Ana südü körpədə qulaq infeksiyalarına yoluxma riskini xeyli azaldır. Hətta bu sətirlərin müəllifinə bir həkim uşağın qulağı ağrıyanda qulağına ana südü damızdırmağı tapşırmışdı. Dediyi kimi etdik, həqiqətən də effektiv nəticəsini gördük.

Xüsusilə qeyd edək ki, ana südü ilə qidalanan uşaqlarda "miningit" xəstəliyi olmur. Təbii qidalanan uşaqlarda revmatizm də olmur. Süni qidalarla böyüyən uşaqlar isə ana südü ilə qidalanan uşaqlara nisbətən köklük xəstəliyi riski daşıyır. Daha onlarla xəstəliyə qarşı müqavimətləri çox zəf olur.

Ana südü təbii sakitləşdirici və yuxu dərmanıdır. Döş əmən körpənin dişləri daha sağlam və səliqəli inkişaf edir. Bir çox ana uşağını yedirərkən südün nəfəs borusuna düşməsindən çox ehtiyat edir. Ümumdünya Səhiyyə Təşkilatının 2009-cu ildə apardığı bir araşdırmaya görə, ana südü ilə qidalanan uşaqlar heç bir halda bu risklə qarşılaşmırlar.

Qız uşaqlarının ana südündən məhrum qalması daha təhlükəlidir, çünki ana südü verilməyən qızlar daha çox döş xərçəngi riski daşıyır. Süni qida ilə böyüyən uşaqlar ana südü ilə böyüyən yaşıdlarına nisbətən hər şeyi daha zəif qavrayırlar. Ana südü ilə qidalanan uşaqların immuniteti daha güclü olur. Süni qida ilə qidalanan uşaqların ana südü ilə qidalanan yaşıdları ilə nisbətdə diabet xəstəliyinə yoluxma riski yüksəkdir.

### Belə "ana"lar da var...

Bir neçə il bundan qabaq oğlum dünyaya gələndə bir həftə qaldığım doğum evində çox əcaib hadisələrlə rastlaşdım. O hadisələrdən biri də 23 yaşlı gənc ananın özünə və körpəsinə etdiyi əziyyət idi. Körpə çox zəif idi və xüsusi qayğıya ehtiyacı vardı, ən əsası da ana südünə. Amma anası yalnız özünü düşünürdü.

Uşaq doğulan kimi ana süd vəzilərini yaylıqla sıxıb kürəyindən möhkəm-möhkəm bağladı, südün kəsilməsi üçün əvvəlcədən aldığı dərmanları içdi. Süd isə kəsilmədi, süd vəziləri partlayacaq hala gəldi. Qadın südsağan cihazla südünü sağıb ayaqyoluna tökdü, körpələr otağında acından ağlayan övladına isə, süni qida verilməsini tələb etdi.







Həkimlərin təəccübünə və danlağına qətiyyən əhəmiyyət vermədi. Onu düşündürən yeganə şey süd vəzilərinin "fiqura"sının pozulmaması idi... Lakin savadsızlıq bəlası, kitab, qəzet oxumaq əvəzinə məişət mövzulu seriala baxmaq azarı onu və onun kimiləri uşağa ana südü verən qadınların daha yaxşı və düzgün fiquraya malik olduqlarını təsdiq edən elmi araşdırmalardan xəbərsiz saxlamışdı.

Ana südünün faydaları və əmizdirmənin əhəmiyyəti saymaqla bitməz. Dünyanın ən məşhur həkimləri, həmçinin, Ümumdünya Səhiyyə Təşkilatı və UNICEF analara körpələrini əmizdirməyi məsləhət görür. Amma həm Azərbaycanda, həm də dünyada ana südü ilə qidalanma son illərin ən aktual problemidir.

UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin məlumatına görə isə, Azərbaycanda anaların 15 faizdən azı körpəsini 6 aya qədər ana südü ilə qidalandırır. 2010-cu ilə Milli Məclisdə qəbul olunan "Ana südü haqqında qanun" kifayət qədər effekt verməди və məsələyə yenidən qayıdılmalıdır. Çünki bu sahədə vəziyyət çox acınacaqlıdır.

### Övladını düşünməyən qadın, heç olmasa özünü düşün!

Mütəxəssislər deyir ki, əmizdirmə son dərəcədə güvənli və təbii bir üsuldur. Hər məməli canlı kimi insanlar da balasını doğuşdan dərhal sonra əmizdirməlidir. Ananın körpəyə süd verməsi körpəyə inanılmaz dərəcədə güc-qüvvət, sağlamlıq və enerji verir. Amma süd verən qadının özü də bu prosesdə daha tez sağalır. Çünki, doğuşdan dərhal sonra qadın körpəsini əmizdirməyə başlasa, doğuşdan sonra çox vaxt baş verən təhlükəli qanaxmalar heç vaxt olmur.

Bütün hamilə qadınların orqanizmində hamiləlik müddətində gələcək körpəsini əmizdirə bilməsi üçün proseslər gedir. Buna görə də, hər bir ana əmizdirmə qabiliyyətinə malikdir. Mütəxəssislər bildirir ki, süni yollarla südün kəsilməsinə cəhd etmək orqanizmdə qarşısı alınmaz fəsadlar yarada bilər. Körpələrini əmizdirən qadınlarda süd vəzisi xərçəngi əmizdirməyən qadınlara nisbətən 25% daha azdır.

Körpəsini əmizdirən qadınlar daha tez arıqlamaq imkanı əldə edə bilir. Çünki süd verən analar gündə 500 kalori xərcləyir. Əmizdirmə anada yumurtalıq xərçəngi riskini xeyli azaldır. Üstəlik, əmizdirmə arzuolunmaz hamiləlikdən qoruyur. Ana südü üzdəki sızanaq və civzələrə də kömək edir, hər gün dəri südlə silinsə və ana südündə isladılmış dəsmalla kompress edilsə, bütün civzələrdən və ləkələrdən təmizlənər.

ÜST-ün bir araşdırmasına əsasən, körpəsini əmizdirən qadınlar əmizdirməyənlərə nisbətən daha qamətli, daha sağlam və daha uzunömürlü olurlar. Daha çox uşağı olan qadınlar daha sağlam, daha uzunömürlü olurlar.

### Ana ilə bala arasındakı gözəgörünməz əlaqə

Əmizdirmə zamanı ana ilə körpə arasında, eyni zamanda, bir gözəgörünməz əlaqə yaranır və bu etibar bağıdır. Mütəxəssislər bildirir ki, süd verən analar övladından uzaq olduqda belə, onu hiss edir, narahat olmasını, ağlamasını duyur. Bu gözəgörünməz bağ uşaqlıq dövründə və məktəb çağında uşağın ən çox ehtiyac duyduğu hissdir.

Bütün körpələr qucağı sevir, amma əmizdirmə zamanı tutulan formada qucaqlaşma bütün uşaqlar üçün əsl səadətdir. ÜST-ün bununla bağlı bir araşdırmasında qeyd olunur ki, əmizdirmə zamanı anasının qucağında olan körpənin ruhi və fiziki inkişafı üçün bu duruş son dərəcə əhəmiyyətlidir.

Ukraynada 2500 uşaq arasında aparılmış tədqiqata görə, ana südü verilmiş uşaqların valideynlərini daha çox sevdiyi, onların verdiyi tərbiyəni tez mənimsədiyi, zehni və yaddaşının güclü olduğu müəyyən edilmişdi.

Rusiyada aparılmış bir tədqiqat isə, ağır cinayət törədən yeniyetmələrin 85%-dən çoxunun ana südü verilməyən uşaqlar olduğu aşkar olunmuşdu.

Elmi araşdırmalara görə, normal halda uşaqlara 2 yaşadək ana südü verilməldir. Din də belə məsləhət görür. Ən pis halda bu proses 1 yaşadək davam etməlidir. Uşağa ana südü verilməsini binanın bünövrəsinin qoyulması ilə müqayisə etmək olar. Bünövrə möhkəm olsa, bina sağlam və uzunömürlü olar.

### Həkim: "Analar övladından asılı olmaq istəmir"

Həkim-dietoloq Lamiyə Həsənova deyir ki, ana südü körpə üçün çox əhəmiyyətlidir: "Tibbi cəhətdən sübut olunub ki, təbii qidalanma ilə böyüyən uşaqlar, süni qidalanan uşaqlara nisbətən raxit, anemiya, disbakterioz, ağciyər iltihabı, kəskin respirator xəstəliklərə və digər infeksion xəstəliklərlə daha az hallarda yoluxurlar. Ana südü ilə qidalana bilməyən uşaqlar süni qidadan immunoqlobulinlər ala bilmədikləri üçün xəstəliklərə qarşı daha həssas olurlar və peyvəndləri bir qədər çətin keçirirlər".

Həkimin sözlərinə görə, anaların çoxu südvermə dövründə zəngin qidalanıb çəkilərinin artmasından çox qorxurlar. Eyni zamanda, ilkin dövrdə süd vəzisindən özözünə süd axaraq paltarlarını bulaşdırmasını da istəmirlər. Həmçinin, ana psixoloji səbəblərdən də əmizdirməkdən imtina edir, yəni ana özünü uşaqdan asılı hala salmaq istəmir, öz fəaliyyətlərini məhdudlaşdırmaq istəmir.

Mütəxəssis bu qorxuların heç əsası olmadığını, gənc anaların yanlış məlumatlara malik olduğunu vurğulayaraq məsləhət görür ki, analar mütləq dünyaya gətirdiyi uşaqlarına süd verməlidirlər. Çünki, təbii-bioloji qanunauyğunluqların pozulması həm ananın, həm də uşağın sağlamlığını təhlükə altına qoyur.

Qeyd edək ki, bu işdə doğum evlərindəki bəzi həkimlərin də rolu az deyil. Onlar dərman və uşaq qidası firmalarından yaxşı mükafatlar almaqla, "südündə mikrob var" bəhanəsi ilə gənc anaları aldadır, körpələrinə süni qida verməyə təşviq edirlər. Ona görə gə analar bu məsələdə çox diqqətli olmalıdırlar.

Həqiqətən südü olmayan analar isə bunun səbəbini tapmalı və aradan qaldırmalıdırlar. Sağlam qidalanan, təbii həyat tərzi keçirən qadınların südü olur. Övladınıza verə biləcəyiniz ən böyük hədiyyə ana südüdür, onu bundan məhrum etməyin.

**Lalə Mehralı**

ARAŞDIRMA

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

QARABAĞ AZƏRBAYCANDIR!

22 iyun


## Şenol Günəş niyə bu oyunçulara şans vermədi



Futbol üzrə “AVRO-2020” turniri ilə erkən vidalaşan Türkiyə İtaliya, İsveçrə və Uelslə mübarizə apardığı A qrupunda heç bir oyunda qalib gələ bilmədi. SİA-nın verdiyi məlumata görə, böyük ümidlər bəslənən Türkiyə milli komandası 2020 Avropa çempionatında turniri 0 xalla başa vuraraq qrup sonuncusu oldu. Turnirin açılış matçını İtaliyaya qarşı oynayan Türkiyə millisi, Romada oynanan bu qarşılaşmada 3-0 məğlub olaraq pis bir başlanğıc etdi. Daha sonra Bakıya gedərək azarkeşlər önündə Uels və İsveçrə oyunları keçirən aypara ulduzlar Uelsə 2-0, İsveçrəyə 3-1 məğlub olaraq AVRO-2020-ni qələbə qazanmadan başa vurdu.

**Şenol Güneş niyə bu oyunçulara şans vermədi?**

Qrup oyunları zamanı Şenol Günəşin heyət seçimləri və vaxt vermədiyi oyunçular tənqid olunarkən, AVRO-2020-nin namizəd heyətinə seçilmiş, lakin vaxt ala bilməyən 8 futbolçu var. Türkiyə Milli komandasının AVRO- 2020 heyətində yer alan, ancaq vaxt ala bilməyən adlar ... Mert Günok, Altay Bayındır, Ozan Kabak, Taylan Antalyalı, Kerem Aktürkoğlu, Enes Ünal, Abdülkadir Ömür və Rıdvan Yılmaz.

***Ziya Hikmətoğlu***

## Hakan Çalhanoğlu “İnter”ə keçir?



“Milan”la başa çatan müqaviləsini yeniləməyən türkiyəli futbolçu Hakan Çalhanoğlu başqa bir Milan təmsilçisi olan “İnter”ə keçməyə yaxındır. Bu barədə “Sky Sports” məlumat yayıb. Türkiyə millisinin üzvü sabah “İnter” üçün tibbi müayinədək keçəcək. Tərəflərin gələn həftə 3 illik rəsmi müqavilə imzalayacağı gözlənilir.

Qeyd edək ki, Çalhanoğlu başa çatan mövsüm 43 matçda 9 qol vurub və 12 qolun ötürməsini verib.

## Yeniyetmənin döyülərək öldürülməsi ilə bağlı cinayət işi açılıb



İyunun 20-də Agsu rayon sakini Nihad Məmişovun daha əvvəl almış olduğu xəsarətlər nəticəsində xəstəxanada ölməsi barədə prokurorluğa məlumat daxil olub. Baş Prokurorluqdan SİA-ya bildirilib ki, bununla əlaqədar Nihad Məmişovun ağır dərəcəli bədən xəsarətləri alması faktı ilə bağlı Ağsu rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə başlanmış cinayət işi üzrə əməl həmin Məcəllənin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsinə tövsif edilib.

İstintaqla müəyyən edilib ki, iyunun 15-də 2005-ci il təvəllüdlü Cabir Müseyibov aralarında şəxsi münasibətlər zəminində baş vermiş mübahisə zamanı Nihad Məmişovu yumruqları ilə sifət və bədən nahiyəsindən vuraraq müxtəlif dərəcəli bədən xəsarətləri yetirib.

Həmin xəsarətlər nəticəsində N.Məmişov stasionar müalicədə olduğu Bakı şəhər Neyrocərrahiyə xəstəxanasında ölüb. Cabir Müseyibov Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində həbs qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə istintaq davam edir.

## “Hande ilə birlikdə olduğum üçün xoşbəxtəm”

**Hande Erçellə eşq yaşayan Kerem Bürsin qatıldığı proqramda eşq münasibətlərindən danışıb. Yaraşıqlı aktyorun sözləri üzərinə Erçel “Mənim üçün də şansdı, onun üçün də şansdı” dedi. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Kerem Bürsin, atasının əvvəlcə onun aktyor olmasına qarşı olduğunu söylədi.**



Türkiyəli aktrisa həmkarı Hande Erçellə münasibətindən də danışıb: “Çəkiliş meydanındakı dostluqumuz yaxşı dostluğa çevrildi. Çətin anlarda bir-birimizə dəstək olduq. Çox yaxşı tərəfdaş olduq. Bir müddət sonra, görəsən bizdən olarmı dedik. Şanslıyıq, mən şanslıyam” dedi.

## Xəbərdarlıq: Bu gün istilik 41 dərəcəyə yüksələcək!

İyunun 22-də gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu Abşeron yarımadasında gecə 20-25, gündüz 34-39, Bakıda gecə 22-24, gündüz 35-37 dərəcə isti olacaq. Atmosfer təzyiqi norma daxilində 759 mm civə sütunu, nisbi rütubət gecə 55-65, gündüz 35-40 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 23-24,Türkan, Hövsan, Sahil, Şıxda 24-25 dərəcə isti olacaq. İyunun 22-də Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi dağlıq ərazilərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 36-41, dağlarda gecə 13-18, gündüz 26-31 dərəcə isti olacaq.



## Tısbağa 3 gündə 30 kilometr yol qət etdi

Türkiyənin Muğla bölgəsində “Talay” adlandırılan yaşıl dəniz tısbağası 3 gündə təxminən 30 kilometr yol qət edib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, təxminən 9 ay əvvəl balıq tutan çubuğu udaraq yaralanan tısbağa müalicə olunub. Tısbağa peyk izləmə cihazı əlavə edilərək 3 gün əvvəl təbiətə buraxılıb. Tısbağanın ilk gündə 10 kilometr yol qət edərək Ekincik Körfəzinə çatdığı təyin olunub. 3 günün sonunda “Talay”ın daha 20 kilometr yol qət etdiyi və Marmarisdəki Aksaz mövqeyinə çatdığı təyin olunub.

***Arzu Qurbanzadə***




## ELAN

**Hörmətli “Nar” abunəçiləri!**

01.07.2021 tarixindən başlayaraq ”Vətəndaş” tipli ”Asan İmza” xidməti üçün aylıq abunə haqqına dəyişiklik ediləcək. Daha ətraflı məlumatı https://www.nar.az/asanimza/ səhifəsindən əldə edə bilərsiniz.



***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**

**“Azərbaycan” nəşriyyatında çap olunur**

***Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**